QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 079 (5799) **2 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

## Prezident İlham Əliyevin qətiyyətli siyasəti uğurla davam edir

*İlham Əliyev: "2019-cu il ölkəmiz üçün uğurlu il olacaq"*

Səh 3



"Azərbaycan mədəniyyətlərarası dialoqun uğurla həyata keçirildiyi bir ölkə kimi tanınır"



2

AMEA-nın illik Ümumi Yığıncağı keçirilib



4

Uğurlu islahatların alternativi yoxdur



5

Mübariz Qurbanlı icraçı direktorla görüşüb



9

Dövlət Sərhəd Xidmətinin rəisi "Qazax" sərhəd dəstəsinin xidməti-döyüş fəaliyyətini yoxlayıb



6

Bu gün paytaxtımızda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlayır



8

9

"ASAN xidmət" mərkəzlərinin sayı 22-yə çatacaq



11

"Hazırlıq qruplarında oxuyacaq abituriyentlərə güzəşt olmayacaq"



13

Mediada "Meydan" savaşları: Amerika fondları 1:0 öndədir

MEYDAN TV

# “Azərbaycan mədəniyyətlərarası dialoqun uğurla həyata keçirildiyi bir ölkə kimi tanınır”

## *Prezident İlham Əliyev Ümumdünya və Avrasiya Yəhudi konqresləri rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ümumdünya Yəhudi Konqresinin, Avrasiya Yəhudi Konqresinin və Avropa Yəhudilərinin Bakı dini icmasının rəhbərlərinin daxil olduğu nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ümumdünya və Avrasiya Yəhudi konqresləri rəhbərlərinin ölkəmizə geniş tərkibdə səfərinin əməkdaşlığın müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Prezident İlham Əliyev əsrlər boyu ölkəmizdə müxtəlif xalqların, o cümlədən yəhudilərin əmin-amanlıq şəraitində bir ailə kimi yaşadığını vurğulayaraq, bu gün də Azərbaycanın mədəniyyətlərarası dialoqun uğurla həyata keçirildiyi bir ölkə kimi tanındığını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın beynəlxalq aləmdə sivilizasiyalararası əlaqələrin təmin edilməsi işinə böyük töhfə verdiyini dedi.

Çıxış edən qonaqlar Prezident İlham Əliyevlə görüşdən məmnunluq hissi keçirdiklərini bildirdilər. Onlar ölkəmizdə gördükləri inkişaf proseslərinin nümayəndə heyətinin üzvlərində dərin təəssürat doğurduğunu qeyd etdilər.

Söhbət zamanı Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin xalqlararası və mədəniyyətlərarası dialoqa böyük töhfə verdiyi vurğulandı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1568-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında” 2011-ci il 21 dekabr tarixli 548 nömrəli, “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında” 2012-ci il 13 iyul tarixli 681 nömrəli, “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında” 2016-cı il 11 aprel tarixli 858 nömrəli fərmanlarında, “Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində Hərbi Ovçuluq İttifaqının yaradılması haqqında” 2013-cü il 24 iyul tarixli 3017 nömrəli və “Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında” 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə Fərmanı imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi barədə” 2006-cı il 19 aprel tarixli 394 nömrəli və “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 17 noyabr tarixli 349 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərmanı imzalayıb.

* * *

Prezident İlham Əliyev Ağstafa rayonunun Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# “Uruqvay Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verir”

## *Prezident İlham Əliyev Uruqvayın xarici işlər nazirini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Uruqvay Şərq Respublikasının xarici işlər naziri Rodolfo Nin Novoanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Uruqvay xarici işlər naziri Rodolfo Nin Novoanın ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərin genişləndirilməsi istiqamətində səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi. Eyni zamanda, Prezident İlham Əliyev Rodolfo Nin Novoanın Azərbaycanda görüşləri zamanı iqtisadi əməkdaşlığın və biznes strukturları arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı perspektivlərin müəyyənləşdiriləcəyinə əmin olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin də əlaqələrin genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Uruqvay Şərq Respublikasının xarici işlər naziri Rodolfo Nin Novoa Prezident İlham Əliyevlə görüşdən məmnunluq hissi keçirdiyini qeyd edərək, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı zəmin yaratdığını dedi. O, Azərbaycan ilə Uruqvay arasında iqtisadi əməkdaşlığın, o cümlədən ticarət dövriyyəsinin artırılmasının da zəruri olduğunu vurğuladı. Uruqvaylı nazir ölkəsinin bütün dövlətlərin ərazi bütövlüyünü dəstəklədiyini və bu mövqeyin dəyişməz olaraq qaldığını diqqətə çatdırdı. Rodolfo Nin Novoa Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edəcəyindən məmnunluğunu ifadə etdi.

Görüşdə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulandı və bu Forum beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı ölkələrimiz arasında kənd təsərrüfatının müxtəlif sahələrində əməkdaşlığın inkişafı üçün böyük perspektivlərin olduğu bildirildi.

# Prezident İlham Əliyevin qətiyyətli siyasəti uğurla davam edir

## *İlham Əliyev: “2019-cu il ölkəmiz üçün uğurlu il olacaq”*



***Hər il başa çatarkən növbəti ilə hansı uğurlarla qədəm qoyuruq sualını qarşıya qoyuruq və bu sualı cavablandırmaq üçün ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial, mədəni, demokratik islahatlar və xarici siyasət sahəsində qazandığı uğurları bir daha təhlil etmək zərurəti yaranır. Azərbaycanın tarixinə uğurlu il kimi daxil olan 2018-ci il uğurlu il kimi də estafeti 2019-cu ilə çox böyük nailiyyət və yeniliklərlə təhvil verdi. Artıq qüdrətli iqtisadiyyata malik olan Azərbaycan, 2019-cu ilin birinci rübünü uğurla başa vurdu.***

Bu, gəlişi gözəl söz deyil, real faktlara əsaslanan nəticələrdir. Bu uğurlar, əldə edilən nailiyyətlər Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir daha diqqətə çatdırıldı. Eyni zamanda, dövlət başçısı 2019-cu ildə qarşıda duran vəzifələr barədə də ətraflı söhbət açdı.

### “Biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur”

Dövlət başçısı İlham Əliyev keçirilən müşavirədə keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirdi. “İslahatlara alternativ yoxdur”, - deyən Prezident İlham Əliyev vurğuladı ki, son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur”. Birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlət başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu dedi: “Birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə - 200 milyon manatdan çox artıb. Vergi orqanları qeyri-neft sektorundan daha çox - 136 milyon manat vergilər toplaya bilmişlər. Bu, islahatların bariz nümunəsidir. İlin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir. Sənaye istehsalı 4,4 faiz artmışdır. Qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb. İnflyasiya aşağı səviyyədədir - 2,1 faiz. Ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub”.

Dövlət başçısı onu da qeyd etdi ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır.

### “İslahatların yeni mərhələsinə qədəm qoyulub”

Dövlət başçısı ötən il keçirilən prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyulduğunu bildirdi: “Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atılmışdır, hazırlıq işləri aparılmışdır. Seçkilərdən sonra andiçmə mərasimində görüləcək işlərlə bağlı Prezident tərəfindən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. İslahatların davam etdirilməsi üçün çox ciddi iş aparılmalı, daim inkişafda, axtarışda olmalıyıq. Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır”.

### “İslahatlar yaxşı nəticələr verir”

“İslahatlar yaxşı nəticələr verir”- deyən Prezident İlham Əliyev bildirdi ki, Strateji Yol xəritələrinin icrası 52 faiz təşkil edir: “Strateji Yol xəritələrinin icrası 52 faiz təşkil edir. Bu önəmli proqram 2020-ci ilin sonuna qədər icra ediləcək. Hər bir sahə üzrə çox ciddi addımlar atılır. Büdcə gəlirləri artır, makroiqtisadi vəziyyət sabitdir, islahatlar öz nəticəsini verir, biznes mühiti yaxşılaşır. Bütün sahələrdə islahatların uğurlu nəticələrini görürük. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar öz nəticəsini verir, icbari tibbi sığorta ilə bağlı görülən işlər gözəl nəticə verir”.

### “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik”

Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halını yüksəltməyə yönəltməkdir. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən, ötən illərdə dünyada hökm sürən maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, ölkəmizdə sosial layihələr və iqtisadi islahatların icrası zəifləmədi, hətta əvvəlki sürətlə davam etdirildi. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən Prezident İlham Əliyev minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirdi, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğuladı. “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik”, - deyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının əhəmiyyətindən danışdı. Prezident İlham Əliyev maaşların və pensiyaların artırılması məsələsinə də toxunaraq bildirib ki, bu il də bu məsələ diqqət mərkəzində olacaq: “Qeyd etdiyim kimi, bu il maaşlar, pensiyalar artırıldı və bu proses davam etdiriləcək. Mən bildirmişəm, biz bu məsələni daim diqqətdə saxlayırıq. Qeyd etdim ki, son 15 il ərzində maaşlar və pensiyalar dəfələrlə artıb. Ancaq bu, bizi tam qane edə bilməz. Ona görə, bundan sonra da minimum əməkhaqqı, minimum pensiya və digər sosial müavinətlərin artırılması nəzərdə tutulur. İmkan daxilində biz bunu edəcəyik. Bu sahədə öz siyasətimizi ardıcıl şəkildə aparacağıq”.

### “Azərbaycan ilin əvvəlindən bütün sahələrdə uğurla inkişaf edir”

Ölkə Prezidenti Azərbaycanın həmişə olduğu kimi, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini də bildirdi: “İlin əvvəlindən Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilib. VII Bakı Qlobal Forumu həm intellektual potensialına, həm də müzakirə olunan məsələlərə görə dünya miqyasında bu gün ən mötəbər forumlardan biridir. Bakıda OPEC+ görüşü keçirilmişdir. Azərbaycan nəinki bu təşəbbüsün iştirakçısıdır, hətta bu təşəbbüsün, - əgər belə demək mümkündürsə, - müəlliflərindən biridir. Bu il Cənub Qaz Dəhlizinin Məşvərət Şurası ənənəvi olaraq Azərbaycanda keçirildi. Bir sözlə, Azərbaycan ilin əvvəlindən bütün sahələrdə uğurla inkişaf edir”.

### “Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir”

Keçirilən müşavirədə dövlət başçısı İlham Əliyev sosial məsələlər arasında məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində olduğunu vurğuladı: “Sosial məsələlər arasında məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il artıq 810 məcburi köçkün ailəsi yeni müasir qəsəbəyə köçürülür. Bu proses davam etdiriləcək”.

Müşavirədə Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyinin heç bir dəyişiklik olmadığını dedi: “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Danışıqlar formatı dəyişməz olaraq qalır. Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcək. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlət başçısı bildirdi ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır”.

### “İş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır”

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəkləndiyini bildirdi. Dövlət başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışdı. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq: “İş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. Son 15 il ərzində 2 milyon iş yeri yaradılmışdır. Ancaq, eyni zamanda, bu müddət ərzində əhali 1,7 milyon artmışdır. Bu, çox müsbət haldır. Bildiyiniz kimi, bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib. Artıq biz 10 milyonuq. Bu, tarixi nailiyyətdir. Əlbəttə ki, bu, ölkəmizi gücləndirir, potensialımızı artırır. Ancaq, eyni zamanda, artan əhali infrastruktur layihələrinin, iş yerlərinin yaradılması üçün əsas şərtdir”.

“Yenə də deyirəm, iş yerlərinin yaradılması üçün sərmayə qoyuluşu əsas vəzifədir”-deyən dövlət başçısı bildirib ki, dövlət tərəfindən yaradılan iş yerləri, sadəcə olaraq, sosial xarakter alır. Biz bunu edirik və edəcəyik: “Ancaq bu missiyanı özəl sektor sərmayə qoyuluşu hesabına öz üzərinə götürməlidir. Sərmayə qoyuluşu olmasa iş yerləri necə yaradıla bilər?! Dövlət daim iş yerlərini yarada bilməz. Biz, sadəcə olaraq, işsizliyin azaldılması üçün bu işləri görürük. Bildirməliyəm ki, bu il 40 min ödənişli ictimai iş yeri açılır. Mənə verilən məlumata görə, artıq 35 min insan bu il ödənişli ictimai işlərlə təmin edilib. Bu, yenə də deyirəm, sosial təşəbbüsdür, sosial dəstəkdir. Ancaq özəl sektor, ilk növbədə, sərmayə qoymalıdır, iş yerləri yaratmalıdır və rəqabətqabiliyyətli məhsul istehsal etməlidir”.

**RƏFİQƏ KAMALQIZI**

2 may 2019-cu il

# AMEA-nın illik Ümumi Yığıncağı keçirilib







***Dünən Azərbaycan Milli Elmlər Akademiyasının illik Ümumi yığıncağı keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, müxtəlif dövlət qurumlarının və ali təhsil müəssisələrinin rəhbərləri, AMEA-nın həqiqi və müxbir üzvləri, institut və təşkilatlarının direktorları, KİV nümayəndələri iştirak ediblər.***

İlk olaraq tədbir iştirakçıları AMEA-nın elmi nailiyyətlərini əks etdirən sərgi ilə tanış olublar. Sərgidə akademiyanın institut və təşkilatları, regional bölmə və elmi mərkəzləri, eləcə də Rəyasət Heyəti üçün ayrılmış guşələrdə Azərbaycan, rus və ingilis dillərində müxtəlif nəşrlər və istehsal olunan yeni məhsullar nümayiş etdirilib. Sonra Ümumi yığıncaq öz işinə başlayıb. Öncə Azərbaycan elminin inkişafında xüsusi xidmətləri olan dünyasını dəyişmiş görkəmli alimlərin xatirələri bir dəqiqəlik sükutla yad edilib.

AMEA-nın 2018-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyətinə dair məruzə ilə çıxış edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə dövlət siyasətinin mühüm strateji hədəflərinə uyğun olaraq, 2018-ci ildə respublikamızda elm və təhsilin inkişafı istiqamətində görülən mühüm tədbirlər və əldə edilən uğurlar haqqında məlumat verib: "Ötən il AMEA tərəfindən elmi-texniki potensialın inkişaf etdirilməsi, multidisiplinar tədqiqatların aparılması, beynəlxalq elmi əlaqələrin genişləndirilməsi, elm, təhsil və iqtisadiyyat arasında əlaqələrin gücləndirilməsi, yüksəkixtisaslı kadrların hazırlanması, elmi tədqiqat fəaliyyətinin əlaqələndirilməsi, elmi potensialın ölkənin sosial-iqtisadi problemlərinin həllinə yönəldilməsi və digər istiqamətlərdə mühüm işlər görülüb".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə Elm Gününün təsis edilməsi Sərəncamını xatırladan akademik vurğulayıb ki, bu, ölkə başçısının elmimizə diqqət və qayğısının daha bir göstəricisidir. Akif Əlizadə 2018-ci ildə AMEA-nın elmi müəssisələrinin 20-yə yaxın dövlət proqramının və digər dövlət tapşırıqlarının icrasında yaxından iştirak etdiyini, dövlətin elm siyasətinin reallaşması üzrə mühüm elmi tədqiqat işləri və layihələr həyata keçirdiklərini diqqətə çatdırıb.

Elmlə təhsilin vəhdətindən danışan AMEA rəhbəri bildirib ki, kadr hazırlığı sisteminin müasir standartlara uyğun təkmilləşdirilməsi, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiqi məqsədilə hesabat ilində mühüm tədbirlər həyata keçirilib. Vurğulayıb ki, 2018/2019-cu tədris ili üçün AMEA-nın magistraturasına 19 ixtisas, 48 ixtisaslaşma üzrə 67 nəfər yüksək balla qəbul olunub.

Akademik innovativ fəaliyyət sahəsində görülən işlər haqqında da məlumat verib. Hesabat ilində AMEA Yüksək texnologiyalar Parkında (YTP) innovasiya m?hsullarının və yüksək texnologiyaların, həmçinin strateji əhəmiyyətli məhsulların hazırlanması, işlənilməsi, təkmilləşdirilməsi məqsədilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi istiqamətində mühüm nəticələr əldə edildiyini, 2018-ci ildə YTP-nin rezidentlərinin sayının 11-ə çatdığını deyib.

Beynəlxalq elmi əlaqələrdən danışan akademik Akif Əlizadə ötən il bir sıra xarici ölkələrin elmi müəssisələri ilə əməkdaşlığa dair imzalanan müqavilələrin əhəmiyyətindən bəhs edib.

Akademik ötən il AMEA-nın əsas fəaliyyət istiqamətlərindən olan sosial sahədə də həyata keçirilən tədbirlərə toxunub. Akademiya əməkdaşlarının sosial-iqtisadi hüquqlarının qorunması, iş və yaşayış şəraitinin yaxşılaşdırılması, əmək haqlarının artırılması, onların istirahətinin və sağlamlıqlarının təmin olunması, mənzil məsələlərinin həlli istiqamətində bir sıra işlərin görüldüyünü diqqətə çatdırıb.

Məruzədən sonra AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev AMEA Rəyasət Heyətinin 2018-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinə dair sualları cavablandırıb. Yığıncaqda, həmçinin İdarəetmə sistemləri İnstitutunun laboratoriya rəhbəri, akademik Asəf Hacıyev çıxış edib.

Tədbirdə Ümumi yığıncağın qərar layihəsi müzakirə olunub. AMEA Rəyasət Heyətinin 2018-ci ildəki fəaliyyəti qənaətbəxş hesab olunaraq hesabat təsdiq edilib. Qərara əsasən, AMEA-nın Rəyasət Heyətinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrasını davam etdirilməsi, dövlətin elmi-texniki siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində AMEA-nın iştirakının daha da gücləndirilməsi tapşırılıb. Həmçinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin və digər dövlət proqramlarının həyata keçirilməsi ilə bağlı müvafiq qurumlarla əməkdaşlıq və elmi tədqiqat işlərinin gücləndirilməsi, Ümummilli lider Heydər Əliyevin respublikamızda hakimiyyətə gəlməsinin 50 illik yubileyi ilə əlaqədar onun ölkəmizin siyasi, ictimai və mədəni həyatında oynadığı tarixi rolunun elmi əsaslarla araşdırılmasının davam etdirilməsi və "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" dövlət başçısının Sərəncamı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarının icrası istiqamətlərində tapşırıqlar verilib. Qərarda nüvə fizikası, nanotexnologiyalar və nanostrukturlar, informasiya texnologiyaları, tətbiqi riyaziyyat və riyazi modelləşdirmə, süni intellekt sistemləri və mexatronika, astrofizika, kimya texnologiyası və materialşünaslığın nəzəri problemləri, neft kimyası və üzvi sintez, böyük dərinlik neftləri, geodinamika və seysmologiya, qlobal dəyişikliklər və iqlim, molekulyar biologiya, gen mühəndisliyi, əhalinin sağlamlığı və biotibb üzrə fundamental və tətbiqi tədqiqatlara prioritet elmi istiqamətlər kimi üstünlük verilməsi əks olunub. Bundan başqa, Azərbaycan tarixi, ədəbiyyatı, dili, incəsənəti və folklorunun regional və qlobal problemləri, sosial və etnik proseslər, qlobal iqtisadi, siyasi, hüquqi faktorların ölkəmizə potensial təsiri ilə bağlı tədqiqatların davam etdirilməsi tapşırılıb. Həmçinin AMEA-da əldə olunan mühüm elmi nəticələrin nüfuzlu elmi bazalara inteqrasiyasının daha da sürətləndirilməsi, akademiyada nəşr olunan jurnalların bu bazaların tələblərinə uyğunlaşdırılması üçün zəruri tədbirlərin davam etdirilməsi, AMEA-da magistratura təhsilinin daha da inkişafı, AMEA-nın Yüksək Texnologiyalar Parkının yerli və beynəlxalq elmi-texnoloji şirkətlərlə və biznes strukturları ilə əməkdaşlığının genişləndirilməsi, əməkdaşların sosial problemlərinin həlli və digər istiqamətlərdə tapşırıqlar verilib.

Fasilədən sonra BMT-nin Baş Assambleyası tərəfindən 2019-cu ilin "Beynəlxalq Kimyəvi Elementlərin Dövri Cədvəli İli" elan olunması ilə əlaqədar D.İ.Mendeleyevin "Kimyəvi Elementlərin Dövrü Qanunu"nun kəşfinin 150 illiyinə həsr olunan elmi sessiya işinə başlayıb. AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev "Kimyəvi elementlərin Dövri sistemi təbiətin fundamental qanunlarından biridir" mövzusunda məruzə ilə çıxış edib. O, Azərbaycanda qeyri-üzvi funksional materialların, yarımkeçiricilərin və topoloji izolyatorların məqsədli sintezi sahəsində axtarışlarda Dövri cədvəlin mühüm rolundan bəhs edib, AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda son illərdə bu istiqamətdə əldə edilmiş elmi nəticələr haqqında məlumat verib.

Elmi sessiyada Milli Nüvə Tədqiqatları Mərkəzinin sədri, akademik Adil Qəribov, Bakı Dövlət Universitetinin kimya fakültəsinin dekanı, professor Əbdülsəid Əzizov və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Kimya və qeyri-üzvi maddələrin texnologiyası kafedrasının müdiri, kimya elmləri doktoru Yunis Qəhrəmanov çıxış ediblər.

Daha sonra akademik Akif Əlizadə yekun nitqi ilə çıxış edib. AMEA rəhbəri doktorantura təhsilinin Avropa təhsil sisteminə inteqrasiyasını təmin etmək məqsədilə Avropa İttifaqının Erasmus+ proqramının "Nizami" layihəsi çərçivəsində müvafiq tədbirlərin davam etdirilməsinin, gənc alimlərin təcrübə keçmək və təhsil almaq məqsədilə dünyanın nüfuzlu elmi mərkəzlərinə və ali təhsil müəssisələrinə göndərilməsi istiqamətində fəaliyyətin daha da gücləndirilməsinin vacib olduğunu nəzərə çatdırıb. Həmçinin multidissiplinar tədqiqatların gücləndirilməsi istiqamətində riyaziyyat və informatikanın elmin müxtəlif sahələrinə tətbiqinə xüsusi diqqət ayrılmalı, alimlərimiz dövlət siyasətinin mühüm prioritetlərindən birini təşkil edən qeyri-neft sektorunun inkişafına öz töhfələrini verməlidirlər. Sonda akademik Akif Əlizadə Azərbaycan alimlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

***Nailə Məhərrəmova***

# Uğurlu islahatların alternativi yoxdur

***Geridə qoyduğumuz il, o cümlədən cari ilin ilk rübü sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə xarakterizə edilməklə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2019-cu il 30 aprel tarixində, bu dövrün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında son iqtisadi göstəriciləri məhz belə dəyərləndirmişdir. Dövlətimizin başçısı qeyd etmişdir ki : "Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır".***

İqtisadi və sosial sahədə aparılan siyasət və həyata keçirilən uğurlu islahatlar özünü rəqəmlərdə də biruzə veriri. Belə ki, ilin birinci rübündə ümumdaxili məhsul 3 faiz, sənaye istehsalı isə 4,4 faiz artmışdır. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 3,6 faiz yüksəlmişdir. Əhalinin gəlirləri 5,5 faiz artmış, inflyasiya isə olduqca aşağı - 2,1 faiz səviyyəsində qalmışdır. Azərbaycan iqtisadiyyatının ötən rüb ərzində ümumilikdə 2,8 milyard dollar sərmayə qoyulmuşdur ki, onun da 2 milyardı məhz qeyri-neft sektoruna yönəlmişdir. Digər müsbət məqam ondan ibarətdir ki, birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə, yəni, təxminən 200 milyon manatdan çox artmışdır. Bütün bu amillər heç şübhəsiz vətəndaşların rifah halının yüksəlməsinə şərait yaratmış, minimum əmək haqqı və pensiyalar təxminən 40 faiz, məcburi köçkünlərə verilən müavinətlər 50 faiz, sosial müavinətlər isə orta hesabla iki dəfədən çox artmışdır.

Belə ki, əldə olunan uğurları, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılması təmin etmişdir. Təsadüfi deyil ki, iqtisadiyyatın və sosial həyatın ən müxtəlif sahələrinin inkişafını nəzərdə tutan Strateji Yol Xəritələrinin icrası son iki il ərzində 52 faiz təşkil edir. Bu isə o deməkdir ki, gələn ilin sonunadək bu önəmli proqram tam olaraq həyata keçiriləcəkdir. ən əsası odur ki, bu müddət ərzində Azərbaycan vətəndaşları ölkəmizin iqtisadi gücü və qüdrətinin getdikcə artmasının şahidi olmaqda və iqtisadi sahədə müşahidə edilən mütərəqqi dəyişiklikləri özünün həyat səviyyəsində, rifahında hiss etməkdədirlər.

Hazırda qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meyilləri, valyuta ehtiyatlarımızın həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, mühüm nəqliyyat-enerji layihələrinin reallaşdırılması ölkəmizin milli və iqtisadi təhlükəsizliyi üçün möhkəm əsaslar yaradır. Strateji əhəmiyyətə malik bu cür genişmiqyaslı işlər milli və iqtisadi maraqlarımızın qorunması, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edilməsi, iqtisadiyyat və siyasətin bir-biri ilə uğurlu bir şəkildə uzlaşdırılması ilə tamamlanır.

Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Belə ki, dövlət başçısı tərəfindən imzalanmış ölkəmizdə sənayeləşmənin sürətləndirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elmtutumlu və innovativ istehsalın təşkili, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi məqsədi güdən dövlət proqramı uğurla icra edilmişdir. Sənaye parkları və məhəllələri mövcud potensialın gücləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, sənayedə struktur dəyişikliyi baxımından yeni yanaşmadır. Odur ki, son dövrlərdə ölkədə bu cür təsisatların yaradılması istiqamətində xeyli iş görülmüşdür.

Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli ehtiyatlardan istifadə edən sənaye sahələrinin yaradılmasında, istehsal prosesinin təşkili zamanı infrastruktur xərclərinin azaldılmasında, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsində, məşğulluğun təmin edilməsində sənaye parkları və sənaye məhəllələri mühüm əhəmiyyət kəsb edir. İnkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat sektoruna irihəcmli investisiyaların yönəldilməsi nəticəsində hava limanlarının, körpülərin, tunellərin, yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması və s. işlər davam etdirilmişdir.

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr beynəlxalq hesabatlarda da əksini tapmış, müxtəlif meyarlar üzrə reytinq cədvəllərində ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bu, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi və institusional islahatlara beynəlxalq təşkilatların verdiyi yüksək qiymətdir. Təsadüfi deyil ki, indi ölkəmizdə iqtisadi şəffaflığın, səmərəliliyin və struktur islahatlarının yeni mərhələsi başlanır. Bu mərhələdə əsas vəzifə effektiv və dinamik iqtisadiyyatın qurulmasından, daha sağlam iqtisadi bazaya əsaslanan təsirli sosial siyasətin həyata keçirilməsindən ibarətdir.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması ilə xarakterizə olunur. Eyni zamanda, regionlarımız inkişaf etdirilir və bu da əyalətlərdə iqtisadi fəallığın yüksəlməsi ilə müşayiət olunur. Dövlət investisiyaları vasitəsilə infrastruktur obyektlərimiz modernləşdirilir. Xidmət, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm, emal sektoru qeyri-neft sektorunun potensial sahələri kimi inkişaf etməkdədir. Kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsi siyasəti davamlı xarakter daşıyır.

Yeniləşmənin bütün istiqamətlər üzrə uğurla reallaşdırılması ölkənin inkişafı ilə bağlı konkret hədəflərin müəyyən edilməsindən bilavasitə asılıdır. Azərbaycan özünün perspektiv inkişaf xəttini artıq müəyyən edib. Bu, qəbul edilmiş dövlət proqramlarında, strateji yol xəritələrində bir daha öz əksini tapır. Həmin sənədlər ölkəmizdə proqramlı idarəetməni səciyyələndirməklə yanaşı, həm də Prezident İlham Əliyevin siyasi, sosial-iqtisadi və institusional inkişafla



**Siyavuş NOVRUZOV,**
**Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini**

bağlı hədəflərini özündə ehtiva edir. Dövlət başçımız xüsusi olaraq vurğulayır: "Görülmüş işlər deməyə əsas verir ki, biz düzgün yoldayıq. Buna heç bir şübhəmiz yoxdur. İqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar bundan sonra da aparılacaq. Bildiyiniz kimi, bu yaxınlarda məhkəmə-hüquq sahəsində islahatlarla bağlı müvafiq Fərman imzalanmışdır. Hesab edirəm ki, onun icrası bu sahədə də ciddi dönüşə səbəb olacaq. Yəni, biz gərək hər bir sahədə irəli gedək. Yeniliklər, müsbət təcrübə, dünyada mövcud olan ən mütərəqqi yanaşma Azərbaycanda tətbiq edilməlidir. Nəzərə almalıyıq ki, bizim neft-qaz sektorumuz da iqtisadiyyata böyük dəstəkdir. Nəzərə almalıyıq ki, biz indi nəqliyyat mərkəzlərindən birinə çevrilirik. Bu yaxınlarda Çində keçirilmiş "Bir kəmər, bir yol" Forumunda Azərbaycanın iştirakı bir daha onu göstərir ki, ölkəmiz bu önəmli layihənin tərkib hissəsidir. Bizim gəlirlərimiz artacaq, maliyyə və iqtisadi imkanlarımız daha da böyüyəcək. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, diaim irəliyə baxmalıyıq. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, 2019-cu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olacaq".

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü inkişafı onu yaxın perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr sırasına daxil edəcəkdir.

## "Qazın qiymətinə tətbiq edilən güzəştin artırılması müsbət haldır"

***"İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) hazırladığı mavi qazın qiymətinə tətbiq edilən limitin dəyişdirilməsinin iqtisadi əsaslandırmasını hökumətə təqdim etdikdən sonra bir sıra dövlət qurumlarından o cümlədən Dövlət Neft Şirkətindən (SOCAR) əsaslandırmaya rəylər daxil oldu. Dünən isə Azərbaycan Prezidentinin tapşırığı ilə Tarif Şurası bu məsələni müzakirə edərək limitin 1700 kub metrdən 2200 kub metrədək artırılması barədə qərar qəbul etdi. Bu o deməkdir ki, vətəndaşlarımız il ərzində 2200 kub metrədək qazın hər kubmetr üçün 10 qəpik ödəyəcəklər". Bunu SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov deyib.***



Onun sözlərinə görə, limitin artırılması əhaliyə necə təsir edəcək? SOCAR-ın məlumatına görə, 2018-ci ildə əhali 2,96 milyard kubmetr təbii qaz istehlak edib: "2 milyon 155 min əhali istehlakçısının ötən il 1 milyon 763 minin illik istehlakı 1700 kub metrdən az olub. Şirkətin hesablamalarına əsasən, ötən il 392 min vətəndaşımız limitdən artıq mavi qaz istehlak edib. Bu isə o deməkdir ki, 2018-ci ildə əhalinin 70,24 faizi ildə 1700 m3-ə qədər, 29,76 faizi isə 1700 m3-dən çox qaz istehlak edib. SOCAR-in hesablamarına görə, təxminən 2 milyon abonentin illik istehlakı 2200 kub metrdən azdır. Rəsmi rəqəmlərə istinad etsək şuranın qərarından sonra güzəştli limitdən istifadə edən vətəndaşların sayı ümumi istehlakçıların 85 faizinə çatacaq.

Qərar bu gündən qüvvəyə mindiyi üçün güzəşt vətəndaşların limitinə əlavə olunacaq. Hətta limiti artıq istifadə edənlər də əlavə 500 kub metr güzəşt əldə edə biləcəklər.

Birmənalı şəkildə mavi qazın qiymətinə tətbiq edilin güzəştin artırılması müsbət haldır. CESD-nin hazırladığı hesabat da təsdiq edirdi ki, bunun üçün iqtisadi əsaslar var idi. Gələcəkdə qaz hasilatımızın və eləcə də daxilolmaların həcminin artmasına uyğun olaraq bu limitə yenidən baxılması və güzəştin daha da artırılması məqsədə uyğun hesab edirik.

Bütövlükdə isə, CESD beyin mərkəzi olaraq təkliflər hazırlayan zaman iqtisadi əsaslandırmasını da təqdim edir. Bu baxımdan mərkəzinin çoxlu sayda təklifləri hökumət tərəfindən artıq qəbul olunub. Ümid edirik ki, hazırladığımız digər mexanizmlərin də yaxınlarda rəsmi qəbulunu müşahidə edəcəyik".

***Ceyhun Rasimoğlu***



# Dövlət Sərhəd Xidmətinin rəisi "Qazax" sərhəd dəstəsinin xidməti-döyüş fəaliyyətini yoxlayıb



Mayın 1-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev xidmətin Sərhəd Qoşunlarının Ermənistanla dövlət sərhədinin mühafizə və müdafiəsini həyata keçirən "Qazax" sərhəd dəstəsinin hərbi hissə və bölmələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb, sərhəd döyüş məntəqələrində şəxsi heyətlə görüşüb, xidməti və yaşayış şəraitlərinə baxış keçirib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti, dövlət sərhədində zəruri müdafiə infrastrukturunun yaradılması məqsədilə görülən işlərlə tanışlıq olub. Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının və "Qazax" sərhəd dəstəsinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə keçirilmiş xidməti müşavirədə hərbi hissə və bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

# Mübariz Qurbanlı icraçı direktorla görüşüb



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mayın 1-də İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, Dövlət Komitəsinin sədri qonağa Azərbaycandakı dinlərarası harmoniya və qarşılıqlı anlaşma şəraiti, həmçinin dövlətimizin mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq edilməsi sahəsində həyata keçirdiyi siyasət haqqında məlumat verib.

Bildirib ki, ölkəmizdə dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir - birinin dini inancına və mənəvi dəyərlərinə dərin hörmət dayanır. Dövlətin konfessiyalara münasibətində də bərabərlik prinsipi mütləq mənada qorunur. Bu prinsipi ölkəmizdə qeydiyyatdan keçməklə fəaliyyət göstərən dini icmaların fəaliyyətinin dəstəklənməsi, onların ictimai həyatın bir parçası kimi cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlərin görülməsində aydın şəkildə müşahidə etmək olar. Azərbaycanda 925 dini icmanın qeydiyyatdan keçdiyini qeyd edən Komitə sədri onlardan 33-nün qeyri-İslam təməyüllü olduğunu söyləyib.

Mübariz Qurbanlı diqqətə çatdırıb ki, multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Respublikamıza səfər etməsindən məmnunluğunu ifadə edən İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi irqçi təmayüllərin, ksenofobiya və islamofobiyanın gücləndiyi bir dövrdə Azərbaycanın sərgilədiyi tolerantlıq modelini təqdir etdiyini qeyd edib. V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizə səfər etdiyini bildirən qonaq mədəniyyətlər və dinlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanın bu prosesin hərəkətverici qüvvəsinə çevrildiyini deyib. Qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşün sonunda nümayəndə heyətinin üzvlərinə Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

***Ceyhun Rasimoğlu***

# "Sosial islahatlar bundan sonra da davam edəcək"

"Ötən gün Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nitqində qeyd olunan nəticələr göstərir ki, Azərbaycan iqtisadiyyatının bütün sahələri uğurla inkişaf edir, sosial sahələrdə inqilabi islahatlar həyata keçirilir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib. 2019-cu ilin birinci rüb ərzində büdcə daxilolmalarında 200 milyon manatdan çox artımın əldə olunduğunu deyən deputat söyləyib ki, həmin müddətdə ümumi daxili məhsulun həcmi 3 faiz, sənaye istehsalı 4,4 faiz , qeyri-neft sənayesi 15,6 faiz, kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb, inflyasiya aşağı səviyyədə - 2,1 faiz olub: " Ölkə başçısı ötən gün keçirilən iclasda qeyd etdi ki, Azərbaycan iqtisadiyyatına qoyulan 2,8 milyard dollar sərmayənin 2 milyardı qeyri-neft sektorunun payına düşür".

R. Əliyev söyləyib ki, 2019-cu ilin ilk rübü həm də Azərbaycan üçün sosial islahatlar baxımından yadda qalan olub: "Belə ki, bu müddət ərzində minimum əmək haqqı və minimum pensiyalar təxminən 40 faiz , sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinətlər 50 faiz artırılıb. Eyni zamanda Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər, tələbələrin təqaüdləri artırılıb, problemli kreditlərlə bağlı məsələlər və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problem həll edilib. Bununla yanaşı ötən gün daha bir sosial xarakterli addım atıldı ki, bu da təbii qaz istehlakı üzrə müəyyən olunmuş limitin artırılmasıdır. Artıq may ayının birindən 2200 kub metr təsdiq edilməsi göstərir ki, başlamış sosial islahatlar davam edir və bunda sonra da davam edəcək".

Deputat vurğulayıb ki, ölkədə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan beynəlxalq hesabatlarda da yüksək qiymətləndirilir: "Belə ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil olub.



Prezident İlham Əliyevin ötən gün keçirilən iclasda yekun nitqini xatırladan R. Əliyev bildirib ki, dövlət başçısının da söylədiyi kimi hazırda ölkəmizdə iqtisadiyyatın yeni inkişaf strategiyası hazırlanır: "Dövlətimizin başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər , xarici sərmayələrin cəlbi, şəhid ailələri və məcburi köçkünlərin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən də danışdı. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerlərinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən cənab Prezident İlham Əliyev bildirdi ki, bu ildə sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində olacaq. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, 2019-cu il hər birimiz üçün uğurlu olacaq".

***Nailə Məhərrəmova***

# Qlobal layihə: “Bir kəmər, bir yol” təşəbbüsündə Azərbaycanın iştirakının üç aspekti

***Pekində “Bir kəmər, bir yol” layihəsi ilə bağlı təşkil edilən ikinci beynəlxalq əməkdaşlıq forumunun başa çatması ilə analizlər aparılır və proqnozlar verilir. Müxtəlif ölkələrin bu qlobal layihədə iştirak səviyyəsi də fərqlidir. Onun əsas iştirakçılarından biri kimi, Azərbaycanın bu layihədə xüsusi yeri vardır. Prezident İlham Əliyevin foruma dəvət edilməsi və orada çıxış etməsi kontekstində Azərbaycanın həmin proyektdə iştirakı bir sıra aspektlərdə aktuallıq kəsb edir. Eyni zamanda, Azərbaycanın dövlət başçısı ilə Çin rəhbərinin ayrıca görüşməsi maraqlı geosiyasi məqamları ortaya qoyur. Bütün bunların işığında Azərbaycan Prezidentinin tədbirdə iştirakının geosiyasi analizi üzərində dayanmağa böyük ehtiyac görürük.***




## Pekinin layihəsi: Azərbaycan-Çin münasibətlərində yeni mərhələ

“Bir kəmər, bir yol” təşəbbüsünə həsr edilmiş ikinci beynəlxalq forumda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev maraqlı görüşlər keçirib və tədbirdə çıxışı zamanı bir sıra əhəmiyyətli tezislər irəli sürüb. Dövlət başçısı forumun hər üç sessiyasında olub. Birinci sessiya “İnkişaf üçün yeni mənbələrin araşdırılması məqsədilə əməkdaşlığın təşviqi”nə, ikinci sessiya “Qarşılıqlı siyasətin gücləndirilməsi və daha yaxın tərəfdaşlığın qurulması”na, üçüncü sessiya isə “BMT-nin 2030-cu il Gündəliyini həyata keçirmək üçün yaşıl və dayanıqlı inkişafın təşviqi”nə həsr olunmuşdu.

Azərbaycanın dövlət başçısı üçüncü sessiyada çıxış edib. İlham Əliyev Azərbaycanla Çin arasında əlaqələrin qarşılıqlı fayda prinsipi üzərində qurulduğunu vurğulayaraq, bu il 70-ci ildönümünü qeyd edən ÇXR ilə əməkdaşlığa ciddi əhəmiyyət verdiyini ifadə edib. Bu baxımdan foruma dəvət edilməsinin də Azərbaycanla Çin arasında dostluğun və tərəfdaşlığın göstəricisi olduğunu deyib.

Fikirlərinə davam edərək, ölkə rəhbəri vurğulayıb: “Azərbaycan lap əvvəldən Prezident Si Cinpin tərəfindən irəli sürülmüş “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyib. Bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir. O, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır”.

İlham Əliyev bu cümlələrdə faktiki olaraq Çinin irəli sürdüyü təşəbbüsə Azərbaycan dövlətinin baxışını lakonik surətdə ifadə edib. Burada bir neçə aspektin vəhdətini görürük. Birincisi, “Bir kəmər, bir yol” təşəbbüsü çoxlu sayda ölkələr arasında nəqliyyat bağlılığına geniş imkanlar açır. Uzaq Şərqdən başlayaraq Avropaya qədər geniş bir məkanda yerləşən dövlətlər bir-biri ilə nəqliyyat marşrutları üzrə əlaqədə ola bilirlər. Azərbaycan da bu mənzərədə xüsusi yer tutur. Çünki Çindən başlayan bütün yollar “Bir kəmər, bir yol” layihəsi çərçivəsində Azərbaycandan keçir.

Bu məqam strateji əhəmiyyət daşıyır. Məsələ ondan ibarətdir ki, vurğulanan layihə özlüyündə müxtəlif marşrutları birləşdirir. Çindən Rusiya, Qazaxıstan, İran, Hindistan, Fars körfəzi, Cənubi Qafqaz istiqamətlərində marşrutlar başlanğıc götürür. Onların sırasında Azərbaycan ona görə xüsusi yerə və statusa malikdir ki, məhz Bakı etibarlı tərəfdaş imici ilə yanaşı, konkret beynəlxalq layihələrin təşəbbüskarı və aktiv iştirakçısı kimi də özünü təsdiq edib. Bundan başqa, Azərbaycan davamlı olaraq nəqliyyat və logistika infrastrukturunu inkişaf etdirir. Ölkədə qısa zamanda yük daşımaları üçün əlverişli infrastruktur yarada bilib. Uzaq Şərqdən gətirilən yüklərin dəniz və dəmir yolları ilə Avropaya çatdırılmasında artıq Azərbaycan ciddi rol oynayır.

Bu bağlılıqda Bakı-Tbilisi-Qars dəmir yolunu, Bakı Dəniz Limanını ayrıca vurğulamaq olar. Bunlardan başqa, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkə kimi onların fəaliyyətinə böyük töhfə verir. Bu o deməkdir ki, Azərbaycan Çindən nəinki birbaşa Cənubi Qafqaza istiqamətlənən yükləri, hətta Rusiya və İrana gələn yükləri də sonrakı punktlara çatdırmaqda rol oynaya bilər. Yeri gəlmişkən onu da vurğulayaq ki, Prezident İlham Əliyev çıxışında məsələnin bu tərəfinə diqqəti çəkib. Dövlət başçısı ifadə edib: “2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O, eyni zamanda, qitələri birləşdirir, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm hissəsidir. ...Avrasiyada nəqliyyatda çox mühüm rol oynayır... Azərbaycanın sərmayə yatırdığı daha bir əhəmiyyətli nəqliyyat layihəsi Şimal-Cənub dəhlizidir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edirlər”.

## Perspektiv: ticarət, iqtisadi əməkdaşlıq və təhlükəsizlikdə yeni imkanlar

Konkret olaraq, Azərbaycan öz fəaliyyəti ilə ticarət, turizm, nəqliyyat sahələrində nadir imkanlar yaradır. Eyni zamanda, “...xalqları, ölkələri birləşdirir. Ölkələr bir-birinə bağlanır və bu, sülh və sabitlik amalına xidmət edir. Beləliklə, Azərbaycan müasir nəqliyyat infrastrukturuna malik vacib tranzit ölkəyə çevrilib”.

“Bir kəmər, bir yol” layihəsi çərçivəsində Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu üzrə Lazurit dəhlizi (Lapis-Lazuli) ilə daşımaların Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə birləşərək Azərbaycanın tranzit potensialını daha da artırmasını da xüsusi qeyd etmək gərəkdir. Bununla Azərbaycan getdikcə daha çox ölkə üçün mühüm tranzit məkanına çevrilib. Bu aspektdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi mühüm hadisə kimi qəbul edilməlidir.

İkincisi, Azərbaycanın təşəbbüsləri müxtəlif ölkələr arasında əlaqələrin, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir. Ölkə rəhbəri bu kontekstdə vurğulayıb: “...biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığa töhfə verdik. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. “Bir kəmər, bir yol” təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir”.

Və üçüncüsü, bütün bunlar cəm halında mövcud ticarət-nəqliyyat dəhlizlərinin təkmilləşdirilməsi və yenilərinin yaradılması, bütövlükdə isə ticarət münasibətlərinin inkişafına əlverişli təsir göstərir. Ölkəmiz faktiki olaraq Avropa ilə Asiya arasında əməkdaşlıq körpüsü rolunu oynayır. Bu prosesin daha da sürətlənəcəyi və genişlənəcəyi proqnozlaşdırılır. Burada çox vacib bir məqamı da unutmaq olmaz. Yuxarıda vurğulanan töhfələri vermək üçün Azərbaycan özü sürətli inkişaf etməli idi. Prezident İlham Əliyev bu aspektə vurğu edərək, ötən 15 ildə ölkə iqtisadiyyatının üç dəfədən çox artmasını ifadə edib. Ölkəyə 260 milyard dollar həcmində sərmayə yatırılıb. Bu, Azərbaycanı müasirləşdirməyə və müasir infrastrukturu, o cümlədən nəqliyyat sahəsində infrastrukturu yaratmağa kömək edib: “Azərbaycanın builki iqtisadi göstəriciləri artımın olduğunu nümayiş etdirir. Ümumi daxili məhsul 3 faiz artıb, inflyasiyanın səviyyəsi 2,1 faizdir və iqtisadiyyatın şaxələnməsi bizim əsas məqsədlərimizdən biridir”.

Prezident İlham Əliyev forumdakı çıxışında ölkənin əldə etdiyi nailiyyətləri geniş şəkildə təqdim edib. Onlar göstərir ki, ölkə rəhbəri çox düzgün strateji inkişaf kursu müəyyənləşdirib. Azərbaycan “İpək Yolu İqtisadi Kəməri” layihəsi çərçivəsində də kifayət qədər rasional fəaliyyət göstərir.

Təbii ki, bütün bu faktlara Çin dövlət başçısı Si Cinpin laqeyd qala bilməzdi. Pekində Azərbaycan Prezidenti ilə görüşən Çin rəhbəri açıq ifadə edib ki, İlham Əliyev Çin xalqının yaxın dostudur, Çin-Azərbaycan münasibətlərinin, bütün sahələrdə əməkdaşlığın inkişafı üçün daim səylər göstərir və onun “Kəmər və yol” layihəsinin reallaşmasında xüsusi xidmətləri vardır.

Beləliklə, Pekində keçirilən “Bir kəmər, bir yol” forumu göstərdi ki, Azərbaycan Mərkəzi Asiya, Avropa və Afrikanın 60-dan çox ölkəsini birləşdirən beynəlxalq miqyaslı əməkdaşlıq layihəsində aparıcı mövqe tutur. Prezident İlham Əliyevin həmin layihənin həyata keçirilməsinə verdiyi töhfələr Çin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Şübhə yoxdur ki, Azərbaycan həmin layihə çərçivəsində fəallığını davam etdirəcək və qlobal əməkdaşlığa yeni töhfələrini verəcək.

***Newtimes.az***

www.sesqazeti.az
facebook Ses Media Holding

# Azərbaycan mədəniyyətlərarası dialoq kontekstində körpü rolunu oynayır

*Bu gün paytaxtımızda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlayır*

***Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər bəşəriyyətin təhlükəsiz gələcəyi və birgəyaşama ənənələrinə, dialoq və mədəni çeşidliliyə dəstəyin bariz nümunəsidir. Azərbaycan dünya ölkələri arasında mədəni əlaqələrin gücləndirilməsinə ev sahibliyi edərək, bu əlaqələrin inkişafına yüksək önəm verdiyini ortaya qoymuş olur. Bu gün isə ölkəmiz daha bir tədbirə ev sahibliyi edəcək. 2 may tarixində paytaxtımızda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlayacaq.***




### FORUM BMT TƏRƏFİNDƏN TƏŞKİLATIN RƏSMİ İNTERNET SƏHİFƏSİ ÜZƏRİNDƏN CANLI YAYIMLANACAQ

"Ayrı-seçkilik, qeyri-bərabəlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçiriləcək Forumda TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Aralıq Dənizi Birliyinin Baş katibi Nasser Kamel, TÜRKPA Baş katibi Altınbek Mamayusupov, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi Mirça Çiopraqa, İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Hadi Süleymanpur və başqaları iştirak edəcək. Tədbirin təşkilatçıları Azərbaycan hökuməti və Mədəniyyət Nazirliyi, tərəfdaşları isə UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESKO-dur. Bundan əlavə, forumda 100-dən çox ölkə və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edəcəkdir. Tədbir BMT tərəfindən təşkilatın rəsmi internet səhifəsi üzərindən canlı yayımlanacaqdır.

Qeyd edək ki, bu təşəbbüsün əsası 2008-ci ilin 2-3 dekabrında Bakıda keçirilən Avropa və İslam Ölkələri Mədəniyyət Nazirlərinin Konfransında Prezident İlham Əliyev tərəfindən irəli sürülən "Bakı Prosesi" ilə qoyulub. 2010-cu ildən, "Bakı Prosesi" qlobal hərəkata çevrilməyə başladı. 2010-cu ilin 23 sentyabr tarixində BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edildi. Ölkə başçısının Fərmanı ilə forumun iki ildən bir keçirilməsi qərara alınıb və Mədəniyyət və Turizm Nazirliyi tədbirin əlaqələndirici qurumu müəyyən edilib. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Prezident İlham Əliyevin təşəbbüsü olmaqla, dünyanın nüfuzlu beynəlxalq qurumları - UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası və İSESCO-nu tərəfdaş kimi cəlb edən yeganə platformadır.

### DÜNYADA AYRI-SEÇKİLİYİN, TƏCRİD OLUNMANIN ARADAN QALDIRILMASI BİRGƏ SƏYLƏRİN ZƏRURİLİYİNİ ORTAYA QOYUR

Forum Azərbaycanın dünyaya nümunə olan çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyətinin təsdiqi, ölkəmizin mədəniyyətlərarası dialoq mərkəzinə çevrilməsinin daha bir göstəricisidir. Dərin multikulturalizm köklərinə malik ölkə və xalq kimi, Azərbaycanın qlobal arenada bu dəyərlərin təşviqində müvafiq rol oynayır. Bakıda keçirilən bütün beynəlxalq tədbirlər kimi, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da xalqlar və mədəniyyətlərarası dialoqun inkişafı baxımından, əhəmiyyəti yüksək qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər: "Biz bundan qürur duyuruq və multikulturalizm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var".

Müasir dünyada ayrı-seçkiliyin, təcrid olunmanın aradan qaldırılması birgə səylərin zəruriliyini ortaya qoymuş olur. Bu baxımdan, mədəniyyətlərin və dinlərin, müxtəlif baxışların tətbiq edilməsi vacib məsələlərdəndir. Dünyanın müxtəlif regionlarında sabitliyin pozulduğu, ekstremizmin və terrorçuluğun genişlənməsinin təhlükəli hal aldığı zamanda onların qarşısını almaq üçün siyasi yolların axtarılması və bəşəriyyəti irəliyə doğru aparacaq ideyaların təşviqinin gücləndirilməsi zərurəti yaranıb. Dünyanın müxtəlif yerlərində müxtəlif zəmində toqquşmaların baş verdiyi halda, Azərbaycan birgəyaşayışa çağırışlar edir, sülhün və həmrəylinin carçısına çevrilib. Mədəniyyətlərarası Forum, məhz belə halların qarşısının alınmasına öz töhfələrini vermiş olur. Paytaxt Bakı forum çərçivəsində dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə öz töhfəsini bir daha vermiş olacaq. Forum vasitəsilə Azərbaycan mədəni potensialını beynəlxalq mühitdə möhkəmləndirir və mədəniyyətlərarası dialoq kontekstində körpü rolunu oynayır.

Bu gün Şərqlə Qərbin ortaq dəyərlər modeli sayılan ölkəmiz Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilib. Xalqımızın çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyəti dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsi və inkişafında nümunə kimi göstərilir. Ölkəmizdə milli və ümumbəşəri dəyərlərin insan hüquqları və azadlıqlarının, tolerantlıq və dözümlülüyün prioritet məsələ kimi qəbul olunması dövlət siyasətinin əsas prinsipi kimi müəyyənləşdirilib.

***Zümrüd BAYRAMOVA***

## İndoneziya mətbuatında Azərbaycanın dini turizm mövzusunda məqalələr yayımlanıb




İndoneziyanın "Antara" xəbər agentliyinin saytında, İndoneziya dilində ən populyar nəşrlərdən biri olan "Republika" qəzetində, eləcə də "Merahputih" xəbər portalında Azərbaycanın islam dini turizm potensialı haqqında məqalələr yer alıb.

AZƏRTAC xəbər verir ki, həmin məqalələrdə ölkəmizin coğrafi mövqeyi, tarixi, mədəniyyəti ilə yanaşı, dini turizm potensialı barədə məlumatlara geniş yer verilib. 1918-ci ildə Şərqdə ilk demokratik respublikanın məhz Azərbaycanda qurulduğu vurğulanıb. Məqalələrdə Bakı şəhərinin qədim və müasirliyi ilə seçilən abidələrinə, burada təşkil edilən beynəlxalq tədbirlərə xüsusi diqqət yetirilib.

Azərbaycanda islam dininin VII əsrdə qəbul edildiyini vurğulayan məqalə müəllifləri bu gün burada çoxsaylı tarixi-dini məbədlərin, məscidlərin yerləşdiyini də bildiriblər. Bu tarixi abidələr içərisində adı "Qurani-Kərim"də qeyd edilən Əshabi-Kəhf ziyarətgahı barədə ətraflı məlumatlar da öz əksini tapıb.

Məqalələr Məkkəyə Həcc və Ümrə ziyarətlərindən sonra, Yaxın Şərq regionunda Türkiyə və İordaniya kimi müsəlman ölkələrinə səyahət edən indoneziyalı zəvvarlar üçün Azərbaycana səyahət marağının formalaşmasına xidmət edir. Məqalələrin tam mətni ilə https://www.antaranews.com/berita/847793/wisata-ziarah-islami-dengan-tujuan-azerbaijan, https://www.republika.co.id/berita/dunia-islam/dunia/19/04/28/pqo6bx313-azerbaijan-siap-sambut-wisatawan-muslim, https://merahputih.com/post/read/azerbaijan-negara-indah-dengan-sejuta-destinasi-wisata-ziarah-islami linklərdən tanış ola bilərsiniz.

# “Sosial-iqtisadi sahələr üzrə böyük artım və kifayət qədər uğurlu nəticələr əldə edilib”

***“Bu gün Azərbaycanın inkişaf dinamikası bütün dünyada nümunə göstərilir. Ölkəmizdə həyata keçirilən uğurlu siyasət nəticəsində regional və qlobal əhəmiyyətli layihələr gerçəkləşdirilir, insanların rifahı daha da yaxşılaşdırılır, gələcək üçün yeni imkanlar yaranır. Xüsusi olaraq vurğulamaq lazımdır ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə son 15 ildə Azərbaycan zəngin inkişaf dövrü keçib. Son bir ildir ki, yeni sosial-iqtisadi islahatların anonsu verilib və hər birimiz bunun şahidi oluruq. Dövlətimizin başçısının son dövrlərdə imzaladığı Fərman və sərəncamlar bir daha bunu sübut edir”. Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.***



Vüqar Rəhimzadə qeyd edib ki, həyata keçirilən mühüm islahatlar nəticəsində sosial-iqtisadi sahələr üzrə böyük artım və kifayət qədər uğurlu nəticələr əldə edilib: “Belə ki, 2019-cu ilin birinci rübündə sənaye istehsalı 4,4 faiz artıb, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz, kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb. İqtisadiyyata 2,8 milyard dollar sərmayə yatırılıb. Bu sərmayənin 2 milyardı qeyri-neft sektoruna qoyulub. Bununla yanaşı, minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət isə 50 faiz yüksəlib. Eyni zamanda, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər də artıb.

“İki sahil” qəzetinin baş redaktoru vurğulayıb ki, qaçqın, məcburi köçkün və şəhid ailələrinə diqqət və qayğı da dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir: “Aprelin 30-da Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı bu məsələlərə xüsusi diqqət yönəldib. “Sosial məsələlər arasında, əlbəttə ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il artıq 810 məcburi köçkün ailəsi yeni müasir qəsəbəyə köçürülür. Bu proses davam etdiriləcək. Bu, bizim ən prioritet məsələlərimizdən biridir. Bu məsələyə biz daim diqqət göstəririk”, deyən möhtərəm Prezidentimiz bu kateqoriyadan olan insanlara dövlətin nə qədər həssaslıqla yanaşdığını nümayiş etdirib. Qeyd edək ki, bu il şəhid ailələrinə ən azı 800 mənzil veriləcək. Bütövlükdə, 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin edilib. Qarabağ müharibəsi əlillərinə isə bu il ən azı 600 minik avtomobili veriləcək”.

Vüqar Rəhimzadə əlavə edib ki, möhtərəm Prezidentimiz Nazirlər Kabinetinin iclasındakı çıxışında idarəetmə sahəsində də islahatların aparılmasının vacibliyini bildirib: “Dövlətimizin başçısı hər zaman qeyd edir ki, məmur xalqın qulluqçusudur və xalqa xidmət etməlidir. “Mən bunu demişəm, bu gün də, əvvəlki çıxışlarda da. Hər bir sahədə inkişaf üçün böyük meydan var. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə də olacaq... Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcək. Ona görə bir daha demək istəyirəm ki, yerli və mərkəzi icra orqanlarının nümayəndələri daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar.” Cənab Prezident İlham Əliyevin bu fikirləri bir daha onu göstərir ki, vətəndaş dövlət siyasətinin mərkəzində dayanır. Hesab edirəm ki, sadaladığımız bu və digər faktorlar onu deməyə əsas verir ki, 2019-cu il ölkəmiz tarixində uğurlu il kimi yadda qalacaq”.

# Yeni Azərbaycan Partiyasının gəncləri ölkəmizdə həyata keçirilən uğurlu siyasətin təbliğatında fəal iştirak edirlər



**YAP Gənclər Birliyinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Ramin Məmmədovun yap.org.az-a müsahibəsi**

***-Ramin müəllim, Yeni Azərbaycan Partiyasının fəaliyyətində gənclərlə iş sahəsinə böyük əhəmiyyət verilir. Partiyamızın bu siyasətinin gənclərin ictimai-siyasi fəallığı və perspektiv inkişafı baxımından əhəmiyyəti nədən ibarətdir?***

- Bilirsiniz ki, YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Partiyamızın730 mindən artıq üzvü var ki, onların da 40 faizini gənclər təşkil edir. Ümumiyyətlə, YAP hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib.

Bilirsiniz ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan gəncliyinə hər zaman qayğı ilə yanaşırdı. Öz növbəsində, Azərbaycan gəncliyi də Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirir. Bu gün Ulu Öndərin müəyyən etdiyi siyasi kursu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin və Onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi, bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir. Görülən effektiv tədbirlərin nəticəsidir ki, hazırda dövlət orqanlarında, bələdiyyə qurumlarında çalışan gənc kadrların sayı hiss olunacaq dərəcədə artır. Gənclərin daim irəli çəkilməsi onların dövlət idarəçiliyinə fəal cəlb olunması deməkdir.

YAP Gənclər Birliyi də bu gün istedadlı, cəmiyyətə və dövlətə xidmət etmək istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür. Partiyanın rəhbər tutduğu azərbaycançılıq ideologiyasının prinsipləri əsasında Azərbaycan gəncləri arasında vətənə sevgi, ölkə sərhədlərindən kənarda Azərbaycanı layiqincə təmsil etmək, milli-mənəvi dəyərlərimizi qorumaq təbliğ olunur.

Təşkilatımızın həyata keçirdiyi çoxsaylı layihələr də gənclərin bilik səviyyəsinin yüksəldilməsinə, liderlik keyfiyyətlərinin formalaşdırılmasına xidmət edir. YAP həm də gənclərin seçkilərdə və digər ölkə əhəmiyyətli proseslərdə fəal iştirakını təmin etmək üçün seçkiqabağı dövrlərdə çoxsaylı tədbirlər keçirir. Eyni zamanda, təşkilatın bir sıra nüfuzlu dövlətlərin hakim partiyalarının gənclər təşkilatları ilə sıx əməkdaşlıq etməsi Azərbaycan gənclərinin beynəlxalq aləmə inteqrasiyası baxımından çox önəmli faktordur. Bütün bunlar isə perspektiv baxımından böyük uğurlar vəd edir. Bu gün gənclər layiqli vətəndaşlar kimi yetişirlər və bu da gələcəyə nikbinliklə baxmağa tam əsas verir.

***- YAP Gənclər Birliyinin V hesabat-seçki konfransına hazırlıq işləri gedir. Bu məqsədlə,partiyanın yerli strukturlarında da gənclər birliklərinin hesabat-seçki yığıncaqlarıkeçirilir. Sizcə, yerli təşkilatların gənclər birlikləri hesabat dövründə vəzifələrini hansısəviyyədə yetiriblər?***

- Bildiyiniz kimi, bu yaxınlarda Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin V hesabat-seçki konfransı nəzərdə tutulur. Artıq bütün respublika üzrə regionlarda və paytaxt rayonlarının əksəriyyətində yerli hesabat-seçki konfransları keçirilir.

Konfranslarda gənclər birliklərinin ötən müddət ərzində həyata keçirdiyi tədbirlər haqqında hesabatlar təqdim olunur. Bu konfranslar nəticəsində bir daha şahidi oluruq ki, ölkəmizdə yüksək intellektli gənclər formalaşıb, onlar Heydər Əliyev ideyalarına sadiqdirlər və Prezident İlham Əliyevin siyasətini dəstəkləyirlər. Gənclər üzərlərinə düşən vəzifələri yerinə yetirmək üçün bütün imkanlarını səfərbər ediblər. Bu mənada, konfranslarda verilən hesabatlarla bağlı qənaətimiz müsbətdir.

Konfranslarda gənclər birliklərinin yeni heyəti seçilir. Seçim zamanı gənclərin ictimai-siyasi fəallığı, bilik və bacarığı, intellekti və s. vacib amillər əsas götürülür. Deyə bilərəm ki, YAP Gənclər Birliyinin V konfransına hazırlıq işləri başa çatmaq üzrədir.

Bütövlükdə, Yeni Azərbaycan Partiyasının gəncləri ölkəmizdə həyata keçirilən uğurlu siyasətin təbliğatında fəal iştirak edirlər. Çünki müəyyən dairələr ictimai rəyi çaşdırmağa çalışırlar. Ona görə də, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarını fəal, düzgün və əsaslandırılmış formada geniş ictimaiyyət arasında təbliğ olunması vacib məsələdir. Bu baxımdan, gənclərimiz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar.

# “ASAN xidmət” mərkəzlərinin sayı 22-yə çatacaq

***Bu il bölgələrdə beş “ASAN xidmət” mərkəzinin yaradılması nəzərdə tutulur və beləliklə, onların sayı 20-yə çatacaq. Mənə verilən məlumata görə, Bakı şəhərində də yeni mərkəzlərin tikintisinə ehtiyac var. Çünki “ASAN xidmət”in funksiyalarının həcmi və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.***




“Biz “ASAN xidmət”i məhz ona görə yaratdıq ki, bu, asan olsun, bu xidmət rahat olsun, növbə olmasın, heç bir pozuntu olmasın, şəffaf olsun. Buna nail olmuşuq. “ASAN xidmət”in bəyənmə əmsalı 100 faizə yaxındır. Ancaq nəzərə alsaq ki, funksiya genişlənir və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, -ilkin vəsait də ayrıldı, - Bakı şəhərində əlavə iki “ASAN xidmət” mərkəzi yaradılsın və beləliklə, onların sayı 22-yə çatacaq”, - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

*Azərbaycanda islami dəyərlərin, islam mədəniyyət nümunələrinin mühafizəsi, islam həmrəylinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər beynəlxalq ictimaiyyətin ölkəmizə marağının artmasında əsas amillərdəndir. Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq ölkənin davamlı iqtisadi inkişafı təmin edilib, bölgələr arasında regional tarazlıq bərpa olunub, yerlərdə sosial-mədəni infrastruktur obyektləri qurulub, yeni istehsal, habelə, xidmət müəssisələri istifadəyə verilib. Təbii ki, ölkəmizin müxtəlif istiqamətlər üzrə əldə etdiyi uğurlar, qlobal əhəmiyyətli bir sıra mühüm tədbirlərin təşkilatçısı kimi çıxış etməsi də töhfələr verir. Əbəs yerə deyil ki, bu gün Azərbaycan bütün dünya tərəfindən sülhün, əmin-amanlığın, barışın, birgəyaşayışın məkanı kimi qəbul edilir.*

**"FORMULA-1"İN MÖHTƏŞƏMLİYİ ÜÇÜN PAYTAXTIMIZDA İSTƏNİLƏN ŞƏRAİT YARADILMIŞDI**

**BAKIDA PİLOTLAR ƏFSANƏVİ TARİXİ YERLƏRİ ƏHATƏ EDƏN VƏ HEÇ BİR YERDƏ BƏNZƏRİ OLMAYAN TREKDƏ**




# Paytaxtımızın dünya standartlarına uyğun təşkil etdiyi "Formula-1"dən xarici mətbuat yazır







Bu günlərdə bütün dünyanın idman nəbzi yenidən Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə döyündü. "Formula-1" kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar Azərbaycanın dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır.

Paytaxt Bakıda keçirilən və yarım əsrdən artıq tarixi olan "Formula-1" idman tarixində yeni maraqlı səhifədir. Bakı bütün iştirakçı və qonaqları, hər zaman olduğu kimi, növbəti tədbirdə də ev sahibi olaraq yüksək səviyyədə qarşılayaraq, yarışı uğurla yekunlaşdırdı. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılmışdı. Beynəlxalq idman aləmi müstəqillik yolunda uğurla addımlayan Azərbaycanı bir daha tanıdı. Qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmizin güclü potensialı dünyaya bir daha nümayiş etdirildi.




## YARIŞDILAR

Elə bu uğurlu təqdimatın nəticəsidir ki, dünyanda geniş nüfuzu olan KİV-lər "Formula-1" Azərbaycan Qran-Prisini geniş işıqlandırıb. İranın ingilisdilli "PRESS TV" televiziyası Bakıda keçirilən "Formula 1" Azərbaycan Qran-Prisi haqqında süjet təqdim edib. "Formula-1" yarışının Azərbaycan mərhələsinin özünəməxsusluğu ilə seçildiyi vurğulanıb. Bakıda pilotlar qeyri-adi ab-havası ilə seçilən, əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yarışıblar. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Diqqətə çatdırılıb ki, pilotlar 6 kilometrlik Bakı şəhər halqasında gərgin idman mübarizəsi aparıblar. Trek Bakının tarixi məkanlarından, dəniz sahilindən keçməklə azarkeşlərdə xoş ovqat yaratmış oldu. Reportajda turnirin yüksək səviyyədə keçirilməsindən, yarışların dünya standartlarına uyğun təşkilindən, habelə idmançılar və azarkeşlər üçün hər cür şəraitin yaradılmasından geniş bəhs olunub. Süjetdə yarışın qalibləri, Qran-Prinin statistik göstəriciləri haqqında da məlumat verilib.

Bolqarıstanın "Eurokom" xəbər portalı da Bakıda keçirilən "Formula 1" SOCAR Azərbaycan Qran-Prisinə geniş yer ayırıb. Portalda yerləşdirilən məqalədə bildirilib ki, Qran-Prinin qalibi olan "Mercedes" komandasının finlandiyalı pilotu Valtteri Bottas bu mövsüm ikinci dəfə finiş xəttinə birinci çatıb. Pilot cari mövsümdə ilk qələbəsini Avstraliya Qran-Prisində qazanıb. Azərbaycan Qran-Prisində qalibiyyət finlandiyalı pilotun karyerasında beşinci qələbəsi olub. O da diqqətə çatdırılıb ki, V.Bottas "Formula 1" SOCAR Azərbaycan Qran-Prisində 51 dövrəni 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vuraraq qalib gəlib. O, pilotların yarışında 87 xalla birinci sırada olub. V.Bottasın komanda yoldaşı Luis Hamilton 86 xalla ikinci, "Ferrari"nin almaniyalı sürücüsü Sebastian Fettel isə 52 xalla üçüncü yerdə qərarlaşıblar.

Bu və ya digər dünya mətbuatının səhifələrində yer alan məqalələrdə bu idman tədbiri vasitəsilə Bakının gözəlliyi, tarixi məkanları və dinamik inkişafının bütün dünyaya nümayiş etdirilməsi xüsusi vurğulanıb. Bakıda keçirilən yarış zamanı avtomobillər Dənizkənarı Bulvar boyunca və şəhərin ən qədim hissəsi olan, UNESCO-nun dünya irsi siyahısına daxil edilən İçəri Şəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr ediblər. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar Azərbaycan paytaxtını seyr edərək, ölkəmiz haqqında olan təsəvvürlərini daha da genişləndiriblər.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycan tarixində Dahi Öndər Heydər Əliyev şəxsiyyətinin müstəsna yeri var

*Nizami rayonunda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirilib*

***Dünən Nizami rayon icra hakimiyyətinin və YAP Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirilib. Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Ümummilli Liderin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, Azərbaycan tarixində Dahi Öndər Heydər Əliyev şəxsiyyətinin müstəsna yeri var: "Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Ulu Öndər Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub".






Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film göstərilib.

YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək bildirib ki, Ulu Öndərin 1993-cü ildə siyasi hakimiyyətə gəlməsi ilə ölkədə iqtisadi, siyasi, hüquqi islahatlar aparıldı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu sahəsində uğurlu addımlar atıldı: "Yeni Konstitusiya layihəsi hazırlanaraq referendum yolu ilə qəbul edildi, bazar münasibətlərinə keçidlə bağlı möhkəm qanunvericilik bazası yaradıldı, "Əsrin müqaviləsi" imzalandı. Bundan başqa, milli ordu quruculuğu sahəsində irəliyə doğru mühüm addımlar atıldı, Azərbaycan informasiya blokadasından çıxarıldı. Azərbaycana xarici sərmayənin yatırılması üçün əlverişli biznes mühitinin yaradılması istiqamətində əhəmiyyətli işlər görüldü, qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti yaxşılaşdırıldı".

Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov çıxışında vurğulayıb ki, ömrünü xalqımızın, dövlətimizin inkişafına, tərəqqisinə həsr edən Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın milli maraqlarını daim uca tutub. Ümummilli Lider Azərbaycan dövlətinin, xalqının mənafeyi, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin, demokratiyanın inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün fədakarlıqla çalışıb.

Sonda partiyaya yeni üzv qəbul edilənlərə vəsiqələr, partiyanın işində xüsusi fəallığı ilə seçilən bir qrup şəxsə fəxri fərmanlar və diplomlar təqdim edilib.

**RƏFİQƏ**

# "Hazırlıq qruplarında oxuyacaq abituriyentlərə güzəşt olmayacaq"

"Ali məktəblədə hazırlıq qruplarının yaradılması ilə bağlı müzakirələr aidiyyatı orqanlarda davam edir. Qaydalar təsdiq edildikdən sonra DİM onun tətbiq mexanizmi barəsində açıqlama verəcək". SİA-nın xəbərinə görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, builki qəbul kampaniyası hələ ki, mövcud qaydalar əsasında keçirilir: "Hazırlıq qrupları ilə bağlı yeni qaydalar təsdiqləndikdən



sonra DİM qaydaların tətbiqinə həmin qaydaların qüvvəyə minmə tarixindən başlayacayaq".

M.Abbaszadənin sözlərinə görə, ümumiyyətlə, yaxşı olardı ki, yeni qaydalar sentyabr ayından qəbul edilsin: "Belə olan halda ki, həmin ilin abituriyentləri bu qaydaları əvvəlcədən bilir və biz də maarifləndirmə işini düzgün qura bilirik". Hazırlıq qruplarına qəbul üçün bal müəyyənləşdirildiyini deyən Şura sədr söyləyib ki, abituriyentlər bu balı topladıqlar zaman istəklərinə uyğun həmin hazırlıq qruplarında oxuyacaqlar: "Hazırlıq qruplarında təhsil aldıqdan sonra abituriyentlər yenidən qəbul imtahanlarında iştirak etməklə ali məktəblərə qəbul olunacaqlar. Ali məktəblərə hazırlıq qruplarının yaradılması təşəbbüsü ali məktəblərinin özündən də asılıdır".

# "Bakıya yeni metro vaqonları gətiriləcək"



Bakıya yeni metro vaqonları gətiriləcək. AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirib.

Dövlətimizin başçısı bildirib: "Bakı şəhərində nəqliyyat-təsərrüfat problemlərinin həlli üçün əlavə tədbirlər nəzərdə tutulur, şəhər nəqliyyatı təkmilləşir. Bu il 300 ən müasir avtobusun Bakıya gətirilməsi nəzərdə tutulur. Beləliklə, bu, şəhər nəqliyyatına böyük töhfə olacaqdır. Şəhərə yeni metro vaqonları gətiriləcək. Yüzlərlə yeni lift quraşdırılacaq. Bu məqsədlər üçün dövlət büdcəsində vəsait nəzərdə tutulur. Şəhərətrafı dəmir yolunun çəkilişi prosesi davam etdirilir. Bu da şəhər nəqliyyatının işini böyük dərəcədə yaxşılaşdıracaq".

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il mayın 1-dək 99.064.301,66 manat, 213 min 577,88 ABŞ dolları, 16 min 336 avro və 5000 rubl vəsait yığılıb.



Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# "Batan gəmi kapitanının difirambaları"

## *Nikol Paşinyan Robert Koçaryana və Serj Sarkisyana bənzədildi*

***"Yerevanda Avrasiya hökumətlərarası şuranın iclası zamanı Nikol Paşinyan adətən, Robert Koçaryandan və Serj Sarkisyandan eşidə bilinəcək nitqlərlə çıxış etməyi üstün tutdu". Bu barədə armenianreport saytının siyasi təhlilçisi Romella Mnatsakanyan "Batan gəmi kapitanının difirambaları" başlıqlı məqaləsində yazıb.***



"Bizi hansısa paralel reallığa qərq etməyə çalışırlar", deyə qeyd edən erməni siyasi təhlilçi yazır ki, Yerevanda Avrasiya hökumətlərarası şurasının geniş tərkibli iclası keçirilərkən, Avrasiya İqtisadi İttifaqı daha aydın şəkildə öz dişliklərində çat verirdi. SİTAT: "Mövcud strukturun daxilindəki böhranı gizlətmək artıq mümkün deyil. Moskva və Minsk arasında baş verən son olaylar da buna sübutdur".

### Rusiya-Belorus arasındakı neft böhranı erməniləri qorxuya salıb

Rusiya ilə Belorus arasında yaranmış iqtisadi qarşıdurmalara toxunan R.Mnatsakanyan Rusiyanın Belorusla neft qarşıdurmasına da toxunaraq yazıb ki, ruslar belorusları çirkli, standartlara cavab verməyən neft göndərirlər ki, bu da neftayırma zavodlarında bir sıra problemlər yaradır. "Eyni zamanda, Belorus rus neftinin Polşanın PERN şirkətinin tələbi ilə Avropaya tranzitini dayandırıb", deyə qeyd edilən məqalədə bildirilir ki, bir gün sonra "Drujba" kəmərinin Ukraynadakı operatoru da neft istehlakçılarının neftin keyfiyyətinin aşağı olması səbəbindən Macarıstana və Slovakiyaya tranzitini saxlayıb.

Erməni müəllif artıq Rusiyanın Belorusdakı səfiri Mixail Babiçin geri çağırılması ilə bağlı informasiya əldə etdiyini də yazıb və qeyd edib ki, onun vəzifəsindən geri çağırılması ilə bağlı artıq bir həftədir ki, müzakirələr gedib.

Bununla Avrasiya İttifaqında yaranmış böhranı əsas gətirən Mnatsakanyan mövzunu Ermənistanın üzərinə gətirərək, ölkəsinin bu qurumdan zərər görə biləcəyinə eyham vurub. Hətta Rusiyanın baş naziri Dmitri Medvedyevin Yerevana səfəri çərçivəsində Avrasiya İqtisadi İttifaqı ölkələrinin münasibətlərinin pozitiv tərəfdən inkişaf etməsi bəyanatına da ironik münasibət bildirən erməni müəllif onu da iddia edir ki, Medvedyev yalan danışır və bu ittifaq siyasi tərəfdən də böhran yaşamaqdadır.

### Ermənistan Gömrük İttifaqında, Avrasiya İqtisadi İttifaqında və KTMT-də baş vermiş dərin böhranların nəticələrini öz üzərində hiss edib

Bütün bunlardan sonra, Nikol Paşinyanın çıxışına gələn müəllif erməni baş nazirinin Avrasiya İqtisadi İttifaqının inkişafı ilə bağlı çıxışını sərt şəkildə tənqid atəşinə məruz qoyub. SİTAT: "Mən bilirəm, kim bənzər sözlərlə çıxış edərək, ayıldıcı nitq söyləyəcək. Hə, məhz bunu Nikol Paşinyandan gözləməyə dəyərdi. Axı bizim ölkə Gömrük İttifaqında, Avrasiya İqtisadi İttifaqında və KTMT-də baş vermiş dərin böhranların nəticələrini öz üzərində hiss edib... Məhz Yerevanda Avrasiya hökumətlərarası şuranın iclasında mövcud problemlə bağlı danışmaq, istiqamət göstərmək mümkün və lazım idi. Təəssüf ki, bu olmadı. Əksinə, Nikol Paşinyan həm özü, həm də ölkə üçün belə hesab elədi ki, adətən, daha çox Robert Koçaryan və Serj Sarkisyanın çıxışları kimi nitq söyləsin. Əcəba, hakimiyyət bu qədərmi şirindir ki, insanlar daha öncəki baxışlarını kardinal şəkildə dəyişirlər?! Ümidvaram ki, Paşinyanın bu mövqeyi ona heç bir xalq qazandırmadı, hətta Moskvada da onun bu reveranslarını qiymətləndirməyəcəklər. Orada adət ediblər ki, digər ölkələrin və xalqların hazırkı vaxtlarını və gələcəklərini həll etmək hüququ tarixən Rusiyada olub".

Beləliklə, fakt budur ki, erməni müəllif Ermənistan xalqının bundan sonrakı illərdə də Rusiyanın buxovunda qalacağına işarə edir və ölkəsinin istər Gömrük Təşkilatında, istər Avrasiya İqtisadi İttifaqında, istərsə də KTMT-də daha ağır zərbələrə məruz qalacağını proqnozlaşdırır. Xüsusilə, Nikol Paşinyanın Robert Koçaryana və Serj Sarkisyana bənzədilməsi özü-özlüyündə bu reallıqları daha açıq şəkildə ortaya qoymaqdadır.

***Rövşən RƏSULOV***

# Ermənistanda işsizliyin səviyyəsi 20,4 faizə çatıb



Ermənistan işsizliyin səviyyəsinə görə MDB ölkələri arasında "lider" mövqeyini qoruyub saxlayır. Belə ki, açıqlanan son statistik rəqəmlərə görə, bu ölkədə əməkqabiliyyətli əhalinin 20,4 faizi (234 min vətəndaş) işsizdir. Lakin işsizlərin sayının rəsmi rəqəmlərdən daha çox olduğu bildirilir.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, rəsmi statistik rəqəmlərə görə, Ermənistanda əhalinin əməkqabiliyyətli hissəsinin yarısından da azı - cəmi 915 min nəfər işlə təmin olunub. Amma bu ölkənin Statistika Komitəsinin rəsmi nümayəndəsi Lusine Kalantaryan bildirib ki, əməkqabiliyyətli insanların bir hissəsi iş axtarmaq üçün rəsmi orqanlara müraciət etməyib və onların sayı bu statistikada əks olunmayıb. "Məsələn, sosial vəziyyəti ağır olan bir çox kənd sakinləri işləmək istəyirlər, lakin onların yaşadıqları rayonlarda iş tapmaq imkanları yox dərəcəsindədir. Digər tərəfdən, bir çoxları peşələrinin lazımsızlığı ucbatından işsiz qalıblar və yeni peşə öyrənmək üçün maraqları yoxdur. Digər tərəfdən, uzun illərdir işsiz qalan və ümidlərini itirmiş insanlar da iş axtarmaqdan usanıblar və rəsmi olaraq qeydiyyatdan keçmirlər", -deyə Kalantaryan əlavə edib.

Rəsmi hesabatlara görə, Ermənistanda uzun müddət işsiz qalanların sayı 115 min nəfərdən çoxdur. Son aylar Paşinyan hökumətinin hökumət strukturlarında apardığı ixtisarlar nəticəsində bu insanlara minlərlə yeni işsiz əlavə olunub.

# İndiyədək 35 min 800-dən çox sahibkara 2,3 milyard manatadək güzəştli kredit verilib

İndiyədək 35 min 800-dən çox sahibkara 2,3 milyard manatadək, o cümlədən müasir texnologiyaların tətbiqi ilə 470-dək müxtəlif istehsal, emal infrastruktur müəssisələrinə 1,4 milyard manat güzəştli kredit verilib. Bu barədə iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib. Nazir müavini qeyd edib ki, bu kreditlərin hesabına 166 minədək yeni iş yerinin açılması imkanı yaranıb.



# "Hoy Los Angeles" qəzetində Azərbaycanda dini tolerantlıq barədə məqalə dərc edilib

ABŞ-ın nüfuzlu "Los Angeles Times" qəzetinin ispandilli versiyası olan "Hoy Los Angeles" nəşrində baş redaktor Alexandro Masiyelin Azərbaycanda müxtəlif dinlər və etnik icmalar arasında qarşılıqlı hörmət və dinc yanaşı mövcudluq mövzusunda məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, müəllif bu yaxınlarda Bakıda keçirilmiş Beynəlxalq Humanitar Forumda iştirak etmək üçün ölkəmizdə olub.




Alexandro Masiyel yazır ki, bütün dünyada dini mülahizələr zəminində kütləvi qətllər baş verdiyi, məsələn, Şri-Lankada katolik kilsələrinə terror hücumu törədildiyi bir vaxtda Azərbaycanda dinlər arasında dinc yanaşı mövcudluq və tolerantlıq hökm sürür.

Məqalədə qeyd edilir ki, Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sülh və harmoniya şəraitində dinc yanaşı yaşayırlar. Masiyel vurğulayır ki, Azərbaycan əhalisinin əksəriyyəti müsəlmanlar olsa da bu ölkədə katoliklər, pravoslav xristianlar, yəhudilər və digər dinlərin nümayəndələri çox rahat şəraitdə yanaşı yaşayırlar. Müəllif yazır ki, o özü Azərbaycanın müxtəlif regionlarına səfərlər zamanı yəhudi icmasının üzvlərinin öz müsəlman dostlarına kömək etmələrinin, onların hətta birgə məclislər keçirmələrinin şahidi olub.

Masiyel daha sonra Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev ilə söhbəti barədə yazır. Masiyel Ağayevə deyib ki, bu reallığın əsas səbəbi, heç şübhəsiz, tolerantlıqdır. Azərbaycanlı diplomat cavab verib ki, əslində bu gerçəkliyin əsas mənbəyi tolerantlıq deyil, çünki tolerantlıq o deməkdir ki, insan onu qıcıqlandıran amillərə dözməli olur, burada isə söhbət qarşılıqlı hörmətdən və dinc yanaşı yaşamaqdan gedir.

Müəllif deyir: "Baş konsul haqlıdır, irqi nifrətin və dini dözümsüzlüyün səbəbi qorxu, nadanlıq və etimadsızlıqdır. Bizim cəmiyyətə oxşar cəmiyyətlərdə biz özümüzə yabançı olanlara arxamızı çeviririk, biliklərimizin və müxtəlifliklərə hörmət hissinin çatışmaması üzündən qorxu hissinin artmasına imkan veririk". Masiyel öz məqaləsinin sonunda yazır ki, əgər Azərbaycan sakinləri kimi ABŞ-dakı insanlar da qarşılıqlı hörmətin və dinc yanaşı yaşamağın vacibliyini anlasaydılar, başqa dinlərin nümayəndələrinə və immiqrantlara nifrət zəminində hücumların sayı azalardı.

Qeyd edək ki, milyon nüsxə tirajla nəşr edilən "Hoy Los Angeles" qəzeti ABŞ-da ən iri və nüfuzlu ispandilli mətbuat orqanıdır. ABŞ-da 55 milyon, Kaliforniyada 15 milyon, Los-Anceles dairəsində isə 5 milyona qədər ispandilli sakin yaşayır. Bu icmanın ABŞ-ın siyasi və ictimai həyatında nüfuzu günbəgün artır.

# Əli Kərimli küçə ritorikasından qurtula bilmir

## Çünki məkanı, zaman əxlaqı və əqidəsi küçədə yetişib

***Bu gün "siyasi mühacir" adı ilə Norveçdə və Finlandiyada boyunlarında yoğun qızıl zəncir, barmaqlarında iri qaşlı üzüklər, sağ əlində kiçik "barsetka" çantası tutub dolaşanlar AXCP sədri Əli Kərimlinin tərbiyəsiz, əxlaqsız və satqınçılıq xüsusiyyətlərinin təsiri altında məkanı dəyişsələr də, amma onlar dəyişməyiblər və dəyişə də bilməzlər. Çünki bu, o Ə.Kərimlidir ki, 1990-cı illərdə küçələrdən iş kabinetlərinə köç edib, amma həmin köçdə küçə ritorikasından və düşüncəsindən, davranış və mədəniyyətindən qurtula bilməyib. Bu gün də küçə ritorikası, satqın düşüncəsi, əxlaqsız davranış və mədəniyyətsiliyi xalqı küçələrə çağırır. Hansı sifətlə, Ə.Kərimli "xalq" sözünün mənasını anlayırsanki, xalqa da müraciət edirsən".***

Anlamırsan ki, xalq nə narazı elektoratdır, nə sosial baza. Vətəndaşları, özü yazdığı və dediyi "milyonları" arxasınca aparmaq üçün gərək dəyərli, mənəviyyatlı, əxlaqlı olasan. Ancaq bu kimi milli-mənəvi dəyərlərdən çox-çox uzaq olan sənin kimi satqın, cinayətkar məfhumun xalqın adından danışmağın özü cinayətdir. Bir də Ə.Kərimli kimilərin şüurları bu günə kimi dəyişməyibsə, bundan sonra da dəyişməyəcək. Necə deyərlər: 40-ında öyrənən, gorunda çalar.

Bu, o Ə.Kərimlidir ki, siyasi fəaliyyətinin zahiri ilə batini arasında kəskin fərqlər var. O, sosial şəbəkələrə köç etdiyindən, bu addımını "hakimiyyət məni təqib edir" şüarçılığı ilə ört-basdır etməyə çalışır. Bu yerdə deyirlər: qara məni basınca, mən qaranı... Yalan, böhtan, absurd iddialar, çılğın çağırışlar siyasət deyil. Azərbaycana qarşı aparılan antimilli "savaş"ın isə iflasa uğurasa da, abır-həya nə demək olduğunu anlamayan Ə.Kərimli yenə də sosial şəbəkələrdən düşmür ki, düşmür....

### Şər maşınının baş ağrıdan aləti - Əli Kərimli

Xaricdən maliyyələşərək Azərbaycanı gözdən salmağa çalışan şər maşınının əsas "aləti" olan Ə.Kərimli siyasi ekstremizmin ruporları olan Vidadi İsgəndərli, Nahid Cəfərov, Qurban Məmmədov, Orduxan Teymurxan, Tural Sadıqlı və bu kimi satqın "siyasi mühacir"ləri çağırışlar etmək tapşırığını verməsi uğursuz bir oyundur.

Təbii ki, ölkə başçısı dəfələrlə anti-Azərbaycan qüvvələrə qarşı siyasi iradəsini qəti şəkildə ortaya qoyub. Hətta bu qüvvələrə qarşı Prezidentin köməkçisi Əli Həsənovun da davamlı yazıları göstərir ki, bu qüvvələr iflasa uğramış bir zümrəni təmsil edir. Ə.Həsənovun təbirincə desək, xaricdən maliyyələşən və idarə olunan "iaşə müxalifəti" nə qədər cəhd etsə də, ölkəmizin suverenliyinə xələl gətirə bilməz.



### Bələdçisi qarğa olanın burnu həmişə zibillikdə olar

V.İsgəndərli, O.Teymurxan, T.Sadıqlı, H.Müntəzir, Q.Məmmədov, Q.Zahid kimi satqınlar məhz belələrindəndirlər. Ə.Kərimli kimi satqınlar şəbəkəsi ölkəmizin əleyhinə apardıqları "qara piar" kampaniyasının rəngini gündən-günə nə qədər tündləşdirsələr də, heç nəyə nail ola bilməyəcəklər. Çünki Azərbaycan ictimaiyyəti yaxşı anlayır ki, beləələri ancaq onun-bunun beş-üç qəpiyi ilə səs-səsə verərək zingildəşirlər. Bax, budur dağıdıcı düşərgənin, Ə.Kərimlinin sifəti. Sözsüz ki, bu cür müxalifətçiliyin sonu elə belə də olmalıdır. Bir də tarix Ə.Kərimli və onun müdafiəçilərinin kimliyini unutmur. Satqınlıq tarixən əxlaqın və mənəvi prinsiplərin aşınmasının göstəricisi kimi dəyərləndirilib. Naturasında xəyanət olan kəslər üçün isə satqınlıq etmək adi bir şey olub. Məhz bunun nəticəsidir ki, ağlı başında, əqidəsi bütöv olan heç kim satqınları sevməyib. Satqınlara yalnız satqınlar dəstək veriblər.

**Rəfiqə HÜSEYNOVA**

# Mediada "Meydan" savaşları: Amerika fondları 1:0 öndədir

Artıq deyesen regionda maraqları olan fondlar ve onların arxalarında dayanan gücler ellerinde kütlevi informasiya vasiteleri saxlamaq uğrunda ciddi - cehdle mübarizeye başlayıblar. Başlayıblar deyende, bu mübarize onsuz da var idi, son günler ise emelli başlı özünün pik heddine çatıb. Hele bir neçe ay önceden qrantyorların kulislerinde söz söhbet gezirdi ki, Meydan Tv el deyişdirecek. Kimin bu youtube kanalı kimi fealiyyet gösteren, vetendaş jurnalistikası adlanan mefhumun Azerbaycana atılan ilkin nifaq toxuunu sepen bu ilk başda özfealiyyet kimi görünen, Turan tv kimi tezlik alıb özünü biabırçı veziyyete salmayan, daha çox qrant mexanizmlerinin işleme mekanı kimi daha çox Avropaya üz tutan müxalifetçileri bir araya toplayan internet televiziyasına yiye duracağı ise emelli başlı sual yaradırdı.

Meydan tv-nin etrafında pusquya yatan bir neçe maraqlı qüvvelerin olması ise danılmaz fakt idi. Bele ki, bu internet televiziyasında çalışanların özlerinin bele arasında ideoloji fikir ayrılıqlarının mövcudluğu, quruldoğu zaman Qerble Amerika arasında özünü bazara çıxarmaqdan yorulan Emin Millinin bir söz, növcavan Qum kendirbazlarından olan Hebib Müntezirin tamam ayrı bir söz demesi, arada xarice getmemişden önce Xocalı soyqırımına göre Ermenilerden üzr isteyen Günel Mövludun, Artuşu Zaurun sevgilisine çeviren Eli Ekberin ve Avropada qerar tutan diger muzdlu qelem sahiblerinin bu internet televiziyasının sehifelerinde görünmeleri, sonradan onlara qoyulan qadağa bu internet televiziyası üstünde geden iqtidar savaşlarının en açıq göstericisi idi. Çünki bu televiziyanın quruluş meqsedi belli idi: Azerbaycanda baş verenlere qerezli reaksiya vermek, ağı qara, qaranı ise ağ kimi teqdim etmek ve bununla sifarişi verenlerin sifarişine uyğun olaraq ölkede ictimai fikri çaşdırmaq.




Kim verirdi sifarişi?! Tebii ki, zaman zaman deyişirdi. Avropadan ve Amerikadan gelen qrantlara nezaret eden müxtelif qrant savaşçılarının hetta Meydan tv - nin üstünde ''saçyolduya çıxmaları'' da bize gelib çıxan xeberler arasındadır. Ele deyesen qrant verenler de bunların saçyolduya çıxmalarından bezib ki, axırda bunların başını sığallamaq fikrinden daşınıblar. Bele olan halda ise ne baş verib: layiheni maliyyeleşdirmeye razı olan fondlar bir neçe şert ireli sürüb. Üzde her ne qeder eyni düşüncedeymiş kimi görünseler de, bu yırtıcıları Meydan tv - nin etrafında yığılmağa mecbur eden amillerden birisi de ele bu pul herisliyi idi ki, hamısının bir - bir axırına çıxdı.

Avropadakı Azərbaycan əleyhinə fəaliyyət göstərən müəyyən antimilli dairələr ölkəmizə təzyiq göstərmək üçün artıq internet televiziyalarına pul ayırmağı mənasız sayırlar. İnternet televiziyalarının yerini daha çox fərdlərin yaratdığı youtube kanalları alır. Pul onlara verilir, eyni zamanda da texniki dəstəklə də təmin olunurlar. Təbii ki, ABŞ-dakı fondlar da eyni prosesə start verib, amma internet televiziyaları onlar üçün prioritet sahələrdəndir. Elə bir neçə gün öncə Emin Millinin Meydan tv layihəsindən istefa verməsi, ya da uzaqlaşdırılması, onun yerinə isə Amerikada yaşayan Camal Əlinin təyin olunmasının özü də bəzi mətləblərdən xeber verir. Camal Əli Meydana direktor təyin olunubsa, deməli Avropadakı antimilli fondlar yaxın vaxtlarda həm fərdi youtube kanallarına, həm də çay-xana portalı kimi Həbib Müntəzirin ideyalarına uyğun yaradılan portallara dəstəyini artıracaq. Amerikanın İrana qarşı sanksiyalarının son günlər gündəmə gəldiyini də düşünsək, qrantyorlar Həbib Müntəzir vasitəsi ilə bir zamanlar Gürcüstan İctimai Universitetində təhil almış radikal dindarları da öz etrafına çəkməyə çalışacaq Avropa fondları.

Səid Nuri, Etibar Salmanlı kimi NİDA-dan və AXCP-dən qopub ABŞ-da yaşayanların zaman-zaman qrant savaşlarında Meydan tv-ni tənqid etmələrinin arxasında bu dayanırmış sən demə. Dünən Azadlıq radiosunun bir zamanlar Azərbaycan bölməsinin rəhbəri olmuş Rövşən Əliyevin açıqlamasını və eyni zamanda Avropada yaşayan yazar Əli Əkbərin yazdıqlarını yanbayan qoysanız, pazzl tamamlanacaq. Qalır bircə Arzu Qeybulla - Sevinc Osmanqızı savaşları ki, Camal Əlinin direktor keçdiyini düşünsək, ən azından Arzu Qeybulla - AQOS - Erməni diasporasının aktiv azərbaycandilli mediaya şansları əllərindən çıxacaq deyəsən. Amma butun hallarda Meydan Tv heç vaxt milli maraqlara xidmət etməyib və etməyəcək də.



### ABŞ-da havanın təmizlənməsi üçün süni ağaclar yaradılıb

Amerika alimləri çirklənmiş havanı təmizləyə biləcək süni ağaclar yaradıblar. TASS agentliyi xəbər verir ki, bu texnologiya atmosferdəki karbon qazını tutmağa imkan verir. Bu halda havanın mexaniki yolla sorulması və deməli, enerji tutumlu qurğulardan istifadə edilməsi nəzərdə tutulmur. Bildirilir ki, "yaşıl mexanika" külək axınlarını "süzgəcdən keçirərək" karbon qazı molekullarını tutmağa və təkrar istifadə üçün saxlamağa imkan verir.

Mahiyyət etibarilə bu texnologiya üzrə 1 ton karbon qazının tutulması 100 dollardan da ucuz başa gəlir. Bu, ən ucuz üsuldur. Hazırda mexaniki ağacları hərəsi 12 gövdədən ibarət olan klasterlər şəklində tətbiq etmək planlaşdırılır. Sistem eksperimental fermada sınaqdan keçiriləcək. Alimlər əmindirlər ki, karbon qazının tutulub saxlanması qlobal istiləşməyə və ətraf mühitin çirklənməsinə qarşı daha səmərəli mübarizə aparmağa imkan verəcək.

# Əli Kərimli-Qənimət Zahid davası "şişir" - hədəf "Azərbaycan saatıdır"?

*Beş il bundan öncə, ölkəni tərk edib Fransaya mühacirət edən və Avropada Azərbaycan əleyhinə təşkil edilən kampaniyalarda iştirak edən, bu istiqamətdə erməni lobbisinin buraxdığı sərmayələr hesabına fəaliyyət göstərən "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin AXCP sədri Ə.Kərimli ilə davası "şişməkdə" davam edir. Bu qarşıdurmaların mahiyyəti və səbəbləri barədə mediada müntəzəm məlumatlar getsə də, xatırlatmaq yerinə düşərdi ki, fəaliyyəti dayanmış "Azadlıq" qəzetinin əsas rıçaqları, vaxtilə kursunun müəyyənləşdirilməsi, bilavasitə Ə.Kərimlinin əlində olub. Yəni Q.Zahid, faktiki olaraq, "Azadlıq" qəzetinə rəhbərlik etməyib və bu mətbu orqan birbaşa AXCP sədrinin səlahiyyətində olub.*



### Sorosa bağlı olan donor təşkilatın Qənimət Zahidi əsas fiqur kimi nəzərə alması AXCP sədrini hiddətləndirib

Düzdür, hazırda adıçəkilən qəzet fəaliyyətini dayandırsa da, Ə.Kərimli indi də Q.Zahidin anti-Azəraycan xarakterli qüvvələrlə əməkdaşlıq etdiyi "Azərbaycan saatı" verilişini ələ keçirməyə, diktəsini orada da tətbiq etməyə çalışır. Daha dəqiq desək, Sorosa bağlı olan donor təşkilatın Ə.Kərimlini heçə sayaraq Q.Zahidi əsas fiqur kimi nəzərə alması isə AXCP sədrini hiddətləndirib. Sözügedən məsələnin mahiyyətini daha dərindən anlamaq üçün bir neçə xatırlatmanı etmək yerinə düşərdi. Məlumat üçün bildirək ki, "Azadlıq" qəzeti fəaliyyətini dayandırmamışdan qabaq Corc Sorosa bağlı donor təşkilatlardan biri "layihə" çərçivəsində bu mətbu orqana 175 min avro qrant ayırmışdı. Bu pulu Azərbaycana birbaşa çatdırmaq imkanı olmayan təşkilat həmin vəsaiti hazırda Fransada yaşayan Q.Zahidə ötürmüşdü. Məhz həmin ərəfədən, baş redaktorla AXCP sədrinin arasında şiddətli qarşıdurmalara start verilmişdi. Daha dəqiq desək, Q.Zahid pulu götürdükdən sonra Ə.Kərimliyə düşən payı ona çatdırmayıb, əvəzində isə, yeni "layihəyə" başladığını bildirmişdi. Q.Zahid iddiasına səbəb də tapmışdı. O, "Azadlıq" qəzetinin çapının bərpa olunmamasından narahatlığını və qəzetin saytının informasiya siyasətindən narazı olduğunu Ə.Kərimliyə çatdırmışdı.

### "Azərbaycan saatı" adlı verilişə dəvət edilən qonaqlar sırasında AXCP sədrini tez-tez görmək mümkün deyil

Hətta vəziyyət o həddə qədər inkişaf etmişdi ki, Ə.Kərimli Q.Zahidin ittihamlarından sonra 175 min avronu geri almaq üçün "Azadlıq" qəzetinin baş redaktorunun birinci müavini Rahim Hacıyevi, eləcə də, digər bir neçə cəbhəçini Fransaya minnətə göndərmişdi. Məhz bundan sonra tərəflər arasında qarşıdurma daha da qızışmışdı. Məlumata görə, vəziyyət o həddə çatmışdı ki, R.Hacıyevlə Q.Zahid pul üstündə əlbəyaxa olublar və onlar bir-birlərini möhkəm əzişdirməyə belə macal tapıblar. Əlbəttə ki, Fransa polisinin müdaxiləsinə qədər. Həmin vaxt əldə edilən məlumatlara görə, Q.Zahid Ə.Kərimlinin minnət elçisinə demişdi ki, aldığı pulu AXCP sədrinə verməyəcək. Çünki o, bu pulu "Azadlıq" qəzetinə deyil, özünün və partiyanın xərclərinə sərf etmək niyyətindədir və beləliklə, həmin dava bu gün də davam etməkdədir. Xüsusilə, "Azərbaycan saatı" adlı verlişə dəvət edilən qonaqlar sırasında AXCP sədrini tez-tez görmək mümkün deyil. Yeri gəlmişkən, bənzər hadisələr ilk dəfədir ki, yaşanmır. Hətta pul amili cəbhəçilər üçün o qədər önəmli və əhəmiyyətlidir ki, bu məsələdə ailələrinə belə heç bir güzəştə getmirlər. Buna misal kimi, daha bir məlum hadisəni xatırlaya bilərik. Belə ki, burada da Q.Zahidin və Ə.Kərimlinin adlarının hallanmasından yan keçilməyəcək...

### AXCP-də maddi maraqlar siyasi maraqları hər zaman üstələyib

Q.Zahidin doğma qardaşı, hazırda Belçikada mühacir həyatı yaşayan Mirzə Zahidov (Sakit təxəllüsü ilə-R.N.) "Azadlıq" qəzetində fəaliyyət göstərdiyi vaxtlar AXCP-yə axan pullardan xəbərdar olub və qardaşı Q.Zahidin eyş-işrətlə məşğul olması, mənəviyyatsız və əhli-kef həyat sürməsi onu hiddətləndirib. Çünki həmin vaxtlar "Azadlıq"da çalışan əməkdaşların maaşları ya verilmirdi, ya da zəhmət haqları qəpik-quruşla ödənilirdi. Əvəzində, Ə.Kərimli də partiyaya və qəzetə ünvanlanan pulların bir hissəsini şəxsi məqsədlərinə xərcləyirdi, hətta qəzetin borclarını belə ödəməkdən yayınırdı. Məhz bundan sonra M.Sakit qardaşı ilə dalaşaraq qəzetdən çıxıb, bu gün də onların arasında heç bir münasibətləri yoxdur. Yəni görünən budur ki, həmin vəziyyət bu gün də eyni şəkildə davam etməkdədir. Artıq belə qənaətə gəlmək olar ki, "Azadlıq" üstündə baş verən dava-qırğınların nəticəsi bu qəzetin fəaliyyətinin dayanması ilə yanaşı, həm də AXCP-də vəziyyətin hansı həddə olduğunun göstəricisidir. Əgər bu gün istər Ə.Kərimli ölkədə və xaricdə baş verənlərə hər hansı münasibət göstərirsə, onun bir siyasətçi kimi ictimai rəydə maraqlı olması heç də inandırıcı görünmür. Sosial şəbəkələr vasitəsi ilə saxta profillərlə "like"lər yığmaqla isə siyasi üstünlük qazanmaq əsla mümkün deyil. Ə.Kərimli-Q.Zahid qarşıdurmaları isə tam sürətlə davam edir...

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifət qara zolaqdan çıxa bilməyəcək

*Aprel ayının 26-28 tarixində Bakıda çox yüksək səviyyədə baş tutan "Formula-1" yarışları zamanı müxalifət partiyaları xüsusilə də, Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və onlarla eyni mövqedən çıxış edən qondarma vəkil Aslan İsmayılov uğurlara kölgə salmağa və erməni dəyirmanına su tökməyə hesablanan mövqe sərgilədilər. Söhbət etdiyimiz müsahiblərimiz bu şəxslərin xaricdən təlimat alaraq pozuculuq yolu tutduqlarını bildirdilər.*

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Müxalifətin hərəkətləri düşüklük və zəiflik əlamətidir "

- Adları çəkilən bu şəxslər siyasi meydanda siyasi mübarizəni çoxdan uduzublar. Bunların heç bir siyasi konsepsiyası yoxdur. Bu baxımdan, onlar gündəmə gəlmək, diqqət mərkəzinə çevrilmək üçün anormal vasitələrdən istifadə edirlər. Müxalifət düşərgəsini təmsil edən bu şəxslər bəzi xarici qüvvələr tərəfindən maliyyələşirlər və onların tapşırığı ilə gündəmdə qalmaq və müxalifətçilik rolunu oynamaqdan



ötəri çirkin vasitələrə əl atırlar. Bu faktdır ki, daxili və xarici qüvvələr Azərbaycan dövlətinin əldə etdiyi uğurlara qısqanclıq hissi ilə yanaşırlar və uğurlarımıza kölgə salmaq istəyirlər. Amma nə xarici qüvvələrin, nə də müxalifətin ölkəmizlə bağlı məkrli planları baş tutmayacaqdır. Çünki Azərbaycan dövlətinin inkişafı və beynəlxalq aləmdə artan nüfuzu göz qabağındadır. Dünyanın bir çox nüfuzlu tədbirləri və beynəlxalq miqyaslı idman yarışları bu gün Azərbaycanda keçirilməkdədir. Bu tədbirləri və idman yarışlarını izləmək üçün xarici KİV nümayəndələri ölkəmizə gəlir. Müxalifətdə bundan istifadə edərək reallığı özündə əks etdirməyən fikirlər səsləndirərək özlərinin varlıqlarını ortaya qoymağa çalışırlar. Müxalifətin hərəkətləri düşüklük və zəiflik əlamətidir. Lakin hər dəfə bunların bütün atdığı addımları fiaskoya uğrayır. Çünki həmin beynəlxalq aləmdən ölkəmizə gələn nüfuzlu KİV-lər və digər nüfuzlu təşkilatlar müxalifət təmsilçilərinin tanımırlar və dediklərini də eşitmirlər. Sadəcə olaraq, bu şəxslər sosial şəbəkələrdə qərəzli, çirkin mövqelərlə çıxış etməklə gündəmdə qalmağa çalışırlar. Bu gün müxalifətin özü də çox yaxşı bilir ki, onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Əminliklə deyə bilərəm ki, bundan sonra da ictimaiyyət onlara dəstək verməyəcək.

### TOHGMİB-nın sədri Emin Həsənli: "Müxalifətin iflası qaçılmazdır"

- Vaxt var idi ki, Azərbaycanı dünyada tanımırdılar. Lakin Ulu Öndər Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı. Prezident İlham Əliyev Bakıda böyük tədbirlər keçirir, beynəlxalq miqyaslı idman yarışları təşkil edir. Azərbaycanda keçirilən bütün bu tədbirlər Azərbaycan dövlətinin həm inkişafından xəbər verir, həm də beynəlxalq aləmdə yerinin və rolunun möhkəmlənməsinə yardımçı olur. Ümumiyyətlə, ölkəmizin təbliğində bu cür yarışlar mühüm önəm daşıyır. Bu yarışlar, Əfqanıstanda, Ermənistanda, Suriyada, Afrikada keçirilir?



Əlbəttə ki, bu cür yarışlar dünyanın ən inkişaf etmiş ölkələrində keçirilir, bu cür yarışlara ev sahibliyi edir. "Formula-1" yarışının Azərbaycanda keçirilməsi ölkəmizin inkişafından, sabit və sakit dövlət olmasından xəbər verir. Bu inkişafdan narahat olan qüvvələr isə hay-küy salıb, uğurlara kölgə salmağa çalışırlar. Yəni müxalifət qüvvələri milli maraqlara əks addımlar atırlar. Təəssüflər olsun ki, müxalifət Azərbaycanı istəməyən qüvvələrin maraqlarına xidmət edirlər. Amma onların nə deməsindən və nə etməsindən asılı olmayaraq bu qüvvələr heç nəyə nail olmayacaqlar. Müxalifətin iflası qaçılmazdır.

***GÜLYANƏ***

***Hesab edirik ki, biotibbi eksperimentlərin iştirakçısı olan insanın hüquqlarının müdafiəsi haqqında məsələyə yenidən qayıtmaq lazımdır. Çünki məhz bu sahə üzrə dünya təcrübəsində son onilliklərdə çoxlu sayda prinsipial yeniliklər meydana gəlmişdir. A.Mustafayeva yazır: "Amma heyif ki, bunlar milli biotəbabətdə heç cür öz əksini tapmır. Hazırda biotibbi eksperimentlər etikası qətiyyən təkcə xoş arzulardan ibarət deyil. Bu eksperimentlərin aparılmasının praktikada işlənilmiş və yoxlanılmış normaları, həmçinin, bu normalara əməl olunmasına ciddi nəzarət etmək imkanı verən struktur və mexanizmlər mövcuddur."***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Biotibbi tədqiqalar və insan hüquqları

Sınaqdan keçirilənin (yaxud, onun qanuni nümayəndələrinin) mütləq, sənədli məlumatlandırılmış razılığı tələbi ilə yanaşı, bu cür nəzarətin başlıca hissəsi əvvəla, insanlar və heyvanlar üzərində eksperimentlər aparan elmi-tədqiqat müəssisələrində yaradılan müstəqil etik komitələrdir. Belə bir komitə tərəfindən bəyənilmədən, başqa sözlə, xüsusi etik ekspertiza olmadan heç bir tədqiqat layihəsi maliyyələşdirilə bilməz. İkincisi, elmi jurnalların siyasəti (təəssüf ki, hələ bizdə deyil, Qərbdə) elədir ki, onlar tam aydın olmayan məqalələri dərc etmirlər, bu məqalələrdə ifadə olunan eksperimentlər mövcud etik normalara ciddi şəkildə uyğun gəlməlidir. Bununla da, etik-hüquqi normaların pozulması ilə aparılan eksperimentlər sadəcə, elmi statusa iddia etmək imkanından məhrum olur.

Biotibbi tədqiqatların həddən artıq bürokratikləşməsi təhlükəsi ilə bağlı narahatlıqlara gəlincə, bizə elə gəlir ki, bu, ümumiyyətlə, hər hansı tədqiqat və digər fəaliyyətin reqlamentləşməsi formalarında olduğu kimi mövcuddur. Lakin onu ayrı-ayrı adamlar, tibb aləmi, bütövlükdə, cəmiyyət üçün eksperimentlərin aparılması zamanı nəzarətsizliyin səbəb olduğu potensial təhlükələrlə müqayisə etmək lazımdır.

Konvensiya hazırlanarkən güman olunurdu ki, o, çərçivə xarakteri daşıyacaq, yəni, ümumi normalardan ibarət olacaq. Qərara alındı ki, bu ümumi normalar biotəbabətin ayrı-ayrı sahələrinə münasibətdə konkretləşdiriləcək. Avropa Şurasının Bioetika üzrə rəhbər Komitəsi bu məqsədlə Konvensiyaya Əlavə protokollar hazırlayır. Bu sənəd insanın klonlaşdırılmasını qadağan edir. Hazırda insan üzərində eksperimentlər, orqan və toxumaların transplantasiyası, insanın genetikası, insanın embrion və rüşeyminin müdafiəsi, psixiatriya üzrə Əlavə protokol layihələri müxtəlif hazırlıq mərhələsindədir. Hüquq-müdafiə və hüquqi ədəbiyyatda bir tərəfdən, necə deyərlər, "neqativ" hüquqlarla, yaxud mülki və siyasi hüquq və azadlıqlarla, digər tərəfdən, "pozitiv" hüquqlar, yəni sosial-iqtisadi hüquqlar arasında toqquşmaların mövcudluğu dəfələrlə qeyd olunmuşdur. Biz bu mövzu üzrə müzakirələrə hansısa töhfə vermək fikrindən uzağıq. Bioetika problemləri ilə və Konvensiyada təsbit olunmuş spesifik hüquqların bununla bağlı oynaya biləcəyi rolla sıx əlaqədar olan problemin yalnız bir aspektini vurğulamaq istərdik.

Bu gün Azərbaycan Respublikasının vətəndaşları mülki və siyasi hüquqların həyati vacibliyini hiss edirlər. Sosial-iqtisadi hüquqlarla bağlı problemlər hamıya birbaşa təsir edir. Lakin onlara məhz hüquqi hüquqlar kimi yanaşılması cəhdlərinin yaratdığı sırf hüquqi çətinlik və şübhələrdən başqa, onların gerçəkləşməsi hüquqi deyil, əsasən, iqtisadi amillərdən asılıdır. Bu baxımdan, Bioetika üzrə Konvensiyada qorunan hüquqlar unikal xarakter daşıyır. Onlar, bir tərəfdən, demək olar ki, hər bir insanın gündəlik və aşkar həyati maraqlarına toxunur. Digər tərəfdən isə, onların həyata keçirilməsi siyasi kolliziya və hətta resurs məhdudiyyətlərindən daha çox, hüquq düşüncəsi vəziyyətindən, insanların öz hüquqlarını dərk etməsindən və bu hüquqları fərdi, yaxud digər insanlarla birləşməklə müdafiə etməyə hazırlığından asılıdır. Bütün bunlar "biotibbi hüquqlar"ı cəmiyyətimizdə hüquq düşüncəsinin əsaslarının və öz hüquqlarının müdafiəsinin təşkili və özünütəşkili vərdişlərinin inkişafı üçün xüsusilə uğurlu "poliqon"a çevirə bilər.

A.Mustafayevanın fikrincə, etika və insan hüquqları bir-birilə sıx bağlıdır. Hərçənd ki, etika insan hüquqlarını təyin edir, onun təzahürü üçün imkan hazırlayır. Bioetikanın formalaşması çağdaş təbabətin texnoloji cəhətdən yeniləşməsində baş verən nəhəng dəyişikliklərlə, eləcə də gen mühəndisliyi, orqanların köçürülməsi və biotexnologiyada uğurlar qazanan tibbi-kliniki praktikanın köklü irəliləyişləri ilə şərtlənib. Onun əsas istiqamətləri - surroqat analıq, klonlaşdırma, orqanların köçürülməsi, həyatın süni-şəkildə uzadılması, evtanaziya, gen mühəndisliyi, insanın sağlamlığına ziyan vurmadan ən yeni biotexnologiyalardan və gen modifikasiyalarından istifadə edilməsi və s.-dir.

İnsanın həyat və ləyaqətinə hörmət fəlsəfəsi, onun sağlamlığını qorumaq hüququ bu və ya digər variantda Azərbaycan Respublikasının qanunvericiliyində əhəmiyyətli dərəcədə təsbit edilmişdir. Ölkə konstitusiyasında sağlamlığın qorunması hüququ ilə bağlı xüsusi maddə var. Bununla belə, məlum olduğu kimi, Azərbaycan Respublikası 2001-ci ilin dekabrında "İnsanın əsas hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası"na qoşulmuş, Milli Məclis tərəfindən "Avropa Sosial Xartiyası" və digər beynəlxalq sənədlər ratifikasiya edilmişdir. Bütövlükdə, Azərbaycan qanunvericiliyi hazırda çağdaş Avropa hüquqi məkanına implementasiya dövrünü yaşayır. Bu proses obyektiv xarakter daşıyır. Beynəlxalq hüquq dövlətlərin üzərinə milli qanunvericiliyi beynəlxalq hüquqa uyğunlaşdırmaq "öhdəliyi" qoyur. Bu təkamülün müsbət xarakterini inkar etməyərək, normativ reqlament anlayışı üzərində qısaca dayanmaq istərdik. Bunu klassik Avropa ölkələri, Avropa Şurasının üzvləri və elə bu təşkilatın yeni üzvləri müxtəlif şəraitlərdə yerinə yetirməli olurlar. Məsələn, Avropa təşkilatlarında mülki, siyasi və sosial hüquqların müdafiəsi arasındakı fərq böyük deyil. Sosial-mədəni və siyasi səviyyələrdə oxşarlıqlara, gerçək eyniliklərə görə onlarda problemin həllinə beynəlxalq konvensiya institutlarının kodifikasiya və tətbiqinin bircinsliyi yolu ilə nail olunur.

A.Mustafayeva yazır: "Alimlərin hər bir ölkədə analoji hüquqi şəraitin tezliklə əldə edilməsi kimi təbii arzusunu yaxşı başa düşürük. Lakin gerçəklik amilini nəzərə almamaq, ölkəni milli qanunvericiliyi bütün beynəlxalq normalara tam və sürətli uyğunlaşdırmaq üzrə prosedurlar işləməsini tezləşdirməyə, yaxud iqtisadi, maliyyə çətinlikləri ilə üzləşən, təcavüzün qurbanı olan və bizim nümunəmizdə olduğu kimi, nəticədə 1 milyon qaçqını və məcburi köçkünü olan dövləti onları tətbiq etməyə məcbur etmək düzgün olmazdı.

Bu məsələdən xüsusi narahatlıqla danışmağımız təsadüfi deyil. Hazırda gen diaqnostikasının və gen terapiyasının sürətli inkişafı ilə əlaqədar olaraq insanın genləri ilə manipulyasiyanı tənzimləməyə yönəldilmiş qanunvericilik normalarının işlənməsi aktualdır. Genetik modifikasiya texnologiyaları da daxil olmaqla, ən yeni biotexnologiyaların başlıca təhlükəliliyi ondan ibarətdir ki, bəşəriyyətin rifahı naminə hazırlanan bu proqramlar üçüncü dünya ölkələrinin ehtiyaclarını qətiyyən nəzərə almır. Sözün həqiqi mənasında, yoxsulluğun, aclığın, xəstəliklərin aradan qaldırılması layihələri adı altında pərdələnən bu transmilli proqramlar korporativ münasibətlər və biznes sisteminə transformasiya edərək, dünyanın zəif inkişaf etmiş ölkələrində milyonlarla insanın həyatı üçün ciddi təhlükə təşkil edə bilərlər. Bu meyil, bəlkə də, yeni əsrdə və minillikdə bəşəriyyət üçün ən ciddi çağırışdır, çünki məhz onun əsasında yeyinti və əczaçılıq sənayesi inkişaf edir. Məlum olduğu kimi, bu texnologiyalar başlıca olaraq, kənd təsərrüfatı sahəsində problemlərin intellektual hüquqlar da nəzərə alınmaqla, kompleks şəkildə həll olunduğu dünyanın sənaye cəhətdən inkişaf etmiş regionlarının aqrar sektorunun maraqları çərçivəsində işlənmişdir. Biotexnologiyaların üçüncü ölkələrdə tətbiqinin sanksiyalaşması prosedurunun təhlili isə sertifikatların verilməsi zamanı korrupsiyanı, pestisidlərdən istifadədə sui-istifadə və s. ilə bağlı formal yanaşmanı üzə çıxarır. Fikrimizcə, bu, son nəticədə qlobal məqsədə - bəşəriyyətin təhlükəsizliyinə xidmət etmir.

Xatırladaq ki, Bioloji müxtəliflik üzrə Konvensiyanın (1992-ci il) iştirakçısı olan ölkələr tərəfindən qəbul edilmiş Bioloji təhlükəsizlik haqqında Kartagen Protokolu müasir biotexnologiya məhsulları istehsalını nizamlayır. Bu hadisə davamlı inkişaf sahəsində, ətraf mühitin qorunması ilə inkişaf arasındakı tarazlığa nail olunması yolunda vacib addımdır. Bu protokol iştirakçılara biotexnologiyalardan istifadədə maksimum üstünlük əldə etmək imkanı verir. Bununla yanaşı, o, yeni modifikasiya olunmuş orqanizmlərin yaradılması ilə bağlı olaraq biomüxtəlifliyin və insanların sağlamlığının potensial riskdən müdafiəsinə yönəlmişdir. Mövcud qanunvericilik cəmiyyətdə mürəkkəb etik problemləri vurğulamaq, qaldırmaq məqsədi güdən milli etik komitə və komissiyaların təşkili üçün artıq ilkin hüquqi baza yaratmışdır.

Məlum olduğu kimi, 1997-ci ildə YUNESKO-nun təşəbbüsü ilə Beynəlxalq Bioetika Komitəsi yaradıldı. Sonradan digər beynəlxalq təşkilatlar da - ÜST, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası da bu cür komitələr yaratdılar. Hazırda Avropanın əksər ölkələrində və ABŞ-da tərkibində regional, yerli və peşəkar komissiyalar olan milli komitələr yaradılmışdır. 2009-cu ilin martında isə YUNESKO-nun təklifi ilə Azərbaycan Milli Elmlər Akademiyasında da Bioetika, elm və texnologiyaların etikası üzrə Milli Komitə yaradıldı. Respublikanın biologiya, təbabət, insan hüquqları, fəlsəfə və incəsənət sahəsində aparıcı alimləri, Səhiyyə, Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin nümayəndələri Komitənin işinə cəlb edildilər.

Əlbəttə, alimlər bioetika sahəsində geniş spektrli hüquqi sənəd layihələrinin hazırlanması üzrə təşəbbüslə çıxış edə bilər, onları sonradan baxılmaq üçün Azərbaycan parlamentinin müvafiq komitəsinə verə bilərdilər. Bu layihələr təsdiq ediləcəkləri halda onların tətbiqinin hansı praktiki imkanlarının olması, zəruri laboratoriyaların, müvafiq avadanlıqların, kadrların olması kimi ikiyaruslu reallıq qəbul olunmalıdır. Hesab edirik ki, heç də az əhəmiyyətli olmayan bu amil hüquqi sxolastikadan və hüquqi populizmdən çəkindirir. Lakin milli maraqları, milli təhlükəsizliyi, millətin genofonduna görə məsuliyyəti nəzərə almaqla, bioetik problemləri müzakirə etmək çox böyük önəm kəsb edir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 2 may




## YAP Balakən rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib



Dünən YAP Balakən rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək, Dahi Şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər.

Konfransda YAP Balakən rayon təşkilatı gənclər birliyi sədri Sarxan Hacıyev hesabat məruzəsi ilə çıxış edərək, ötən müddətdə görülən işlər barədə məlumat verib: "Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsində ölkədə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşmaqdadır".

Konfransda Balakən rayon icra hakimiyyətinin başçısı İslam Rzayev, Milli Məclisin deputatları Nəsib Məhəmməliyev, Kamilə Əliyeva çıxış edərək, Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından bəhs ediblər.

Konfransda çıxış edən gənclər birliyi üzvlərindən Fuad Mikayılov, Nərgiz Hacıyeva, Aynur Umarova rayon gənclərinin dövlətçiliyimiz naminə birgə səylərindən, Prezident İlham Əliyevin gənclərə qayğısından və rayon gənclərinin intellektual potensiala malik olmasından danışıblar.

Konfransda daha sonra təşkilati məsələlərə baxılıb. Şibliyev Nurlan Sabir oğlu YAP Balakən rayon təşkilatı gənclər birliyinin sədri, rayon təşkilatı gənclər birliyinin yeni tərkibdə şurası və idarə heyəti seçilib. Həmçinin, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin konfransına nümayəndələr də seçilib.

***RƏFİQƏ HÜSEYNOVA***

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya və biologiya fakültəsinin V kurs tələbəsi Babayeva Nuranə Habil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin T.S.P-1805B qrup tələbəsi Nəsirova Dilaram Əflatun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya ixtisası üzrə III kurs tələbəsi İsgəndərli Aytac Kamal qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## YAP Kürdəmir rayon təşkilatı gənclər birliyinin VI hesabat-seçki konfransı keçirilib







Dünən YAP Kürdəmir rayon təşkilatı gənclər birliyinin hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları ilk olaraq Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər. Konfransda YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli bildirib ki, Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib, onların ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması üçün mühüm addımlar atıb: "Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətini möhtərəm Prezidentimiz, YAP-ın Sədri İlham Əliyev tərəfindən layiqincə yerinə yetirilir".

Konfarnsda YAP Kürdəmir rayon təşkilatı gənclər birliyinin sədri Daşqın Rüstəmovun hesabat məruzəsi dinlənilib.

Məruzə ətrafında rayon təşkilatının şura üzvü, Heydər Əliyev Mərkəzinin əməkdaşı Xəyyam Məlikov, şəhər 1 saylı tam orta məktəbin müəllimi Günel Musayeva, "Azərxalça" ASC- nin Kürdəmir rayon filialının müdiri Rauf Abuşov, Karrar kənd tam orta məktəbinin direktoru Mais Bayramov çıxış ediblər. Çıxış edənlər gənclər birliyinin hesabat dövründəki fəaliyyətini qənaətbəxş hesab edərək, qarşıdakı dövrdə gənclər birliyinin vəzifələri haqqında danışıblar, öz rəy və təkliflərini bildiriblər. Bütünlükdə gənclərə göstərilən qayğı və diqqətə görə Prezidentimiz İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Sonra konfransın qətnaməsi qəbul olunub.




Konfransda təşkilatı məsələlərə baxılıb. 19 nəfərdən ibarət YAP Kürdəmir rayon təşkilatının gənclər birliyinin Şura üzvü və 9 nəfərdən ibarət idarə heyəti, Rauf Abuşov YAP Kürdəmir rayon təşkilatı gənclər birliyinin sədri, Mais Bayramov və Hacıoğlan Məlikov sədrin müavinləri, eyni zamanda 2 nəfər YAP Gənclər Birliyinin V konfransına nümayəndə seçilib.

Konfransın işində iştirak edən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Seymur Orucov, Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirov, Kürdəmir rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov respublikamızda gənclər üçün yaradılan böyük imkanlardan və yüksək şəraitdən danışaraq bu gün gəncliyin artıq siyasi cəhətdən formalaşmış, yetkinləşmiş səviyyədə olduğunu diqqətə çatdırıblar. Çıxışlarda vurğulanıb ki, müasir Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərə böyük diqqət və qayğı ilə yanaşıb. Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan danışan natiqlər bu gün ölkə rəhbəri İlham Əliyevin gənclərə verdiyi önəmi vurğulayaraq bütün ictimai -siyasi proseslərdə gənclərin aktiv şəkildə iştirak edirlər.

***R.KAMALQIZI***


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**